RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 3 (8319) CÜMƏ, 10 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEVİN DƏYİŞMƏZ PRİNSİPLƏRİ

## Düşünülmüş, davamlı və uzaqgörən siyasət
## Dəqiq hədəflər
## Milli maraqlara sədaqət
## Xalqa xidmət

*İnsan bir işə başlayanda, yeni yol açanda adətən xeyli düşünüb-daşınır, götür-qoy edir!*

*İlk növbədə, özünə çoxsaylı suallar verir:*

*- Hara gedirəm, nə istəyirəm, məqsədə necə çatacağam?..*

*Bütün bunlar təbiidir.*

*Xalqın rəhbəri və liderləri, milyonların taleyi üçün məsuliyyət daşıyanlar, bir komanda yaradaraq hamını arxasınca aparanlar isə özlərinə ünvanlanan və tarixin qarşıya qoyduğu sualları dəqiq, aydın və düzgün cavablandırmadan doğru istiqamət götürə, insanları inandıra, onların etimad və etibarını qazana, hədəf seçdikləri zirvəni vədəsində fəth edə bilməzlər!*

*Bu isə məqsəd aydınlığı və hədəf dəqiqliyi deməkdir...*

❖ ❖ ❖

Hər bir dövlət qanunlarla idarə edilir!

Lakin idarəetmədə ənənələrin, müəyyən edilən prinsiplərin, günün tələbi ilə qəbul olunan qərarların, hesablanmış addımların da əhəmiyyəti böyükdür.

**Ənənələr seçilən yolun və siyasətin davamlılığına xidmət edir!**

**Prinsiplər fəaliyyətin məqsəd və məramından, nəyi necə etmək istəyindən yaranır!**

**Qəbul edilən qərarlar zamanın tələblərindən doğsa da, rəhbərin zəkasından, qətiyyət, təcrübə və əzmindən, hətta bəzən fəhmindən qaynaqlanır!**

Görülən işlərin miqyası, qəbul olunan qərarların şamil edildiyi insanların sayı həm də məsuliyyət yükünü müəyyən edir.

Fabrik və zavod direktorunun, icra başçısının, nazirin və komitə sədrinin qərarları eyni "çəkidə" və "məsuliyyət yükündə" deyil!

Dövlət rəhbərlərinin qərarlarının miqyas və məsuliyyəti isə hərdən zaman çərçivəsinə sığmadan belə hüdudsuz olur!

Çünki belə qərar və addımlar hətta zamanı sürətləndirmək, yaxud geriyə çəkmək, insanlığa xoşbəxtlik gətirmək və ya problemləri daha da mürəkkəbləşdirmək gücündədirlər!

*Xoşbəxt o xalqlardır ki, rəhbərləri səhvsiz, ölçülü-biçili, gərəkli və zamanında doğru qərarlar qəbul edərək onları həm də uğurla həyata keçirə bilirlər!*

### Müstəqilliyi qorumaq, saxlamaq və inkişaf etdirmək missiyası

**Əgər Heydər Əliyev dühası, qətiyyət və müdrikliyi olmasaydı, müasir Azərbaycan da mövcud olmazdı!**

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Azərbaycanı fəlakət və dağılmadan, bir dövlət kimi məhvolmadan, əvvəlki tək kiçik xanlıqlara parçalanmadan xilas etdi!

**Əgər İlham Əliyev Heydər Əliyev siyasi kursunu belə uğur və prinsipiallıqla davam etdirməsəydi, müasir dünyanın çağırışlarına zamanında və ustalıqla cavab verməsəydi, Azərbaycan tarixən qısa müddətdə belə güclənə, nüfuz sahibinə çevrilə, sayılıb-seçilə bilməzdi!**

Ulu Öndərin sözləridir: *"Müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir!"*

*"Azərbaycan dünyaya Günəş kimi doğacaqdır".*

İlham Əliyevin dediklərindən: *"Azərbaycan xalqı xoşbəxt yaşamağa layiqdir. Mən çalışacağam ki, neft Azərbaycan xalqının firavanlığına xidmət etsin".*

*"Bizim müstəqilliyimiz başlıca vəzifəmizdir. Azərbaycan müstəqil dövlətdir, qürurlu dövlətdir və gələcəyə çox nikbin baxan dövlətdir".*

*Heydər Əliyev Azərbaycanı təlatümlərdən, xaos və anarxiya bataqlığından, ümummilli böhrandan çıxardı!*

*İlham Əliyev isə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə, dünyada nüfuz sahibinə, bəşəriyyəti narahat edən məsələlərin, qlobal problemlərin müzakirə olunduğu yerə, onların həllinə dəyərli təklif və töhfələr verən məkana çevirdi!*

Bəli, müstəqilliyi qorumaq, saxlamaq və inkişaf etdirmək üçün güclü, nüfuzlu olmalısan, dünyanın liderləri arasında hörmətin, sanbalın, çəkin, görünən yerin olmalıdır!

**Azərbaycan Prezidenti cənab İlham Əliyev kimi!..**

❖ ❖ ❖

Səkkiz il əvvəl 133 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına sədrlik etmiş İlham Əliyev ötən il 120 ölkənin yekdil qərarı ilə 3 il ərzində ikinci böyük təşkilat sayılan Qoşulmama Hərəkatına sədrliyə başlamışdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının növbəti 3 ildəki sədri də cənab İlham Əliyev seçilmişdir.

*Ardı 3-cü səh.*

# Prezident İlham ƏLİYEV: "Bu gün Azərbaycandakı enerji layihələrinin inkişafında yeni bir mərhələyə şahidlik edirik"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyanı və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin icraçı direktoru Mohammed Jameel Al Ramahini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Sizi enerji sektorunda, xüsusilə bərpa olunan enerji resursları sektorunda aparıcı şirkətlər olan "ACWA Power" şirkəti və "Masdar" şirkəti ilə bu gün imzalanmış çox mühüm İcra Müqaviləsi münasibətilə təbrik etmək istərdim. Bu müqavilə Azərbaycanda enerji layihələrinin inkişafında yeni səhifə açacaq. Çünki bərpa olunan enerji bu gün bizim üçün enerji sektorunda prioritetlərdən biridir. Azərbaycan artıq özünün elektrik enerjisi ehtiyaclarını təmin edir və həm də elektrik enerjisi ixrac edir. Lakin bizim hədəfimiz bərpa olunan enerji sektoruna investorlar cəlb etməkdir və bu İcra Müqaviləsinin əhəmiyyəti ondan ibarətdir ki, külək və Günəş elektrik stansiyaları investorların vəsaiti hesabına tikiləcək. Beləliklə, siz Azərbaycanda işləməyə maraq göstərirsiniz. Biz bunu ölkəmizə, gələcəyimizə olan etimad hesab edirik. Çünki bu, çox böyük investisiyadır. Mənə məlumat verildi ki, bu gün İcra Müqaviləsinin imzalanmasından sonra digər müqavilələrin hazırlanması üçün bir qədər vaxt var və ümidvarıq ki, bu il biz Günəş və külək elektrik stansiyalarının təməlqoyma mərasimində iştirak edəcəyik. Bu, bizim üçün çox mühüm layihədir.

Qeyd etdiyim kimi, Azərbaycan elektrik enerjisi sektoruna çoxlu investisiya yatırıb və elektrik xətləri bizi qonşularımızla birləşdirir. Biz elektrik enerjisinin istehsalına çoxlu investisiya yatırmışıq. Bu gün bizim 1000 meqavat əlavə elektrik enerji gücümüz var və biz bunu ixrac edirik, bizim ixrac bazarlarımız var. Həmçinin sizə bildirmək istərdim ki, bizim bu sektordakı investisiyalarımız aparıcı beynəlxalq institutlar tərəfindən, xüsusilə Davos Dünya İqtisadi Forumu tərəfindən qeydə alınır. Onlar elektrik enerjisinin əlçatanlıq indeksinə görə Azərbaycanı dünyada ikinci yerə layiq görüblər. Bütün ölkəmiz elektrik xətləri ilə təmin olunub və qeyd etdiyim kimi, bu gün Azərbaycan ixracatçıya çevrilib. Həmçinin bu yaxınlarda, bir aydan bir qədər çox bundan əvvəl biz tərəfdaşlarımızla birlikdə mühüm qaz kəməri layihəsi olan və artıq Avropa İttifaqının sərhədlərinə çatan TANAP-ı tamamladıq. Biz Günəş və küləkdən nə qədər çox enerji əldə etsək, öz ehtiyaclarımıza və ixrac üçün təbii qaza bir o qədər qənaət edəcəyik. Ona görə də mən bugünkü mərasimə çox böyük əhəmiyyət verirəm. Bu, bizim doğru yolda olduğumuzu göstərir. Bu, həmçinin onu göstərir ki, Azərbaycan investorlar üçün çox yaxşı şərait yaradıb.

Sizin investisiyalarınız yüz milyonlarla dollar məbləğində olacaq. Elektrik enerjisinin ümumi həcmi 440 meqavat olacaq. Bu, həqiqətən Azərbaycanda bərpa olunan enerji baxımından böyük dəyişiklik olacaq. Həmçinin şadam ki, bu layihələrdə sizin şirkətləriniz tərəfdaş olaraq seçiliblər. Hesab edirəm ki, bu, gözlənilməz deyil. Çünki mənə məlumat verilib ki, "ACWA Power"in ümumilikdə 30 min meqavatdan çox elektrik enerjisi var və bərpa olunan enerji sahəsində də 8 min meqavat elektrik enerjisi hasil edir. "Masdar" 4 min meqavat bərpa olunan elektrik enerjisi istehsal edir. Beləliklə, siz bu sahədə çox təcrübəli və aparıcı şirkətlərsiniz. Buna görə də sizi görməkdən çox məmnunam. Əminəm ki, bizim əməkdaşlığımız uzunmüddətli olacaq, bütün layihələr və texniki məsələlər vaxtında həll ediləcək. Biz bu iki iri layihəni başlayacağıq və bu layihələr Azərbaycana gələcəkdə digər investisiyaları, digər investorları da cəlb etmək imkanı verəcək. Çünki bizim ölkə küləklə və Günəşlə zəngindir. Bəzən külək hansısa narahatlıq yaradır, lakin, eyni zamanda, havanı təmizləyir. Ancaq indi külək və Günəş bizim enerji istehsalımıza xidmət edəcək və bunun sayəsində daxili istifadə və ixrac üçün çoxlu təbii qaza qənaət olunacaq. Bir daha xoş gəlmisiniz və bir daha Azərbaycanda investor olmaq qərarınıza görə sizə təşəkkürümü bildirmək istəyirəm.

* * *

Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin idarə heyətinin sədri **Mohammad ABUNAYYAN** dedi:

- Cənab Prezident, icazə verin, Sizə təşəkkürümü və hökumətimizin, Kralın, Vəliəhdin salamlarını çatdırım. Səudiyyə Ərəbistanının hökuməti ilə, bizim rəhbərlərlə artıq qurduğunuz bu möhtəşəm münasibətləri örnək göstərmək olar. Səudiyyə Ərəbistanının şirkətinə göstərdiyiniz etimad sayəsində biz indi Azərbaycanda bərpa olunan enerji ilə bağlı Sizin planlarınızı artıq həyata keçirə biləcəyik. Sərmayələrə, iqtisadi və sosial dəyərlərə gəldikdə, bərpa olunan enerjinin bizim layihələrə cəlb edilməsi nöqteyi-nəzərindən Sizin gözləntilərinizi gerçəkləşdirə biləcəyik. Azərbaycanın resurslarını fərqli enerji generasiyasında istifadə etməyə yönəldəcəyik. Azərbaycan üçün ən yaxşı optimallaşdırılmış iqtisadi həll yoluna nail olmaq üçün yanacaq balansını təkmilləşdirəcəyik. Mən çox şadam və Sizə həqiqətən minnətdaram ki, Siz bizi seçdiniz. Çünki bu, Səudiyyə Ərəbistanı ilə münasibətlərə göstərdiyiniz etimadı əks etdirir. Sizin tətbiq etdiyiniz müfəssəl proqramınız bizə həddən çox müsbət təsir bağışlamışdır. Həqiqətən prosesdə - texniki, kommersiya, müqavilə proseslərində də ən yaxşı təcrübədən istifadə edilmişdir. Bizim digər ölkələrlə necə işlədiyimizə dair və bərpa olunan enerji proqramlarını necə başlamağımızla bağlı geniş təcrübəmiz var. Lakin Azərbaycan nadirliyi ilə seçilir. Çünki siz artıq proqrama başlamısınız.

*Ardı 2-ci səh.*

# Azərbaycan qısa zamanda enerji idxalçısından ixracatçısına çevrilmişdir

**Prezident İlham ƏLİYEV:** "Ölkəmizdə əhalinin və sənaye potensialının artımı diktə edir ki, bu sahə daim diqqət mərkəzində olsun"

Azərbaycan daxili istehsal hesabına özünü dayanıqlı enerji ilə təmin edə bilən ölkələrdən biridir. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin ilk dövrlərində ölkəmizdə enerji istehsalının artırılmasına xüsusi diqqət yetirib.

1974-cü ildə tikintisinə başlanılan "Azərbaycan" İstilik Elektrik Stansiyasının birinci enerji bloku 1981-ci ildə istifadəyə verilib. Bu əlamətdar hadisə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoyub.

Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, hazırda ölkəmizin ucqar dağ kəndləri belə fasiləsiz enerji ilə təmin olunur. Üstəlik, Rusiya, İran və Gürcüstanla enerji mübadiləsi aparır.

*Ardı 7-ci səh.*

# Müavinət alanlar pensiyaçılarla eyni hüquqa malik oldular

Hazırda yaş həddi 61 il 6 ay olan qadınlar və 64 il 6 ay olan kişilər pensiya hüquqları olmadıqda, bu ayın 1-dən yaşa görə müavinət hüququ qazanıb

İqtisadi sahədə qazanılan nailiyyətlər Azərbaycan dövlətinə sosial sahəyə diqqəti getdikcə daha da artırmağa imkan verir. Təkcə keçən il təqdim edilən iki sosial paketi misal göstərmək kifayətdir.

Belə ki, bu geniş, hərtərəfli sosial paketlər 4 milyon 200 min nəfər əhalini əhatə etdi. Bəzi müavinətlər 50, bəziləri 100 faiz artırıldı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz yüksəldildi və s.

Dövlətin uğurlu sosial siyasəti davam edir. Bunu Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bir daha vurğulayıb: "Əminəm ki, gələcək illərdə iqtisadi imkanlarımız genişləndikcə sosial sahəyə bundan da böyük diqqət göstəriləcək".

*Ardı 7-ci səh.*

# Prezident İlham ƏLİYEV: “Bu gün Azərbaycandakı enerji layihələrinin inkişafında yeni bir mərhələyə şahidlik edirik”

*Əvvəli 1-ci səh.*

Siz ən yaxşı şirkətləri rəqabət aparmaq üçün çox peşəkar və şəffaf şəkildə cəlb etmisiniz. Siz, həmçinin çox nadir rəqabətlilik dəyərləri tətbiq etmisiniz.

Cənab Prezident, bu investisiya bizim yüksək səviyyədə olan siyasi münasibətlərimizə uyğun olacaq. Habelə Vəliəhd Şahzadəmizin həmişə qeyd etdiyi kimi, siyasi münasibətləri dəstəkləyən güclü iqtisadi əlaqələri də görmək istəyirik.

Cənab Prezident, bu, Səudiyyə Ərəbistanı tərəfindən müxtəlif sahələri əhatə edəcək investisiya qoyuluşunun başlanğıcıdır.

Cənab Prezident, bildiyiniz kimi, bizim münasibətlərimiz yüksək səviyyədədir. Sosial sahəyə gəldikdə, ötən il ərzində Azərbaycanda 100 mindən çox turistimiz olub. Hər il turistlərin sayında 20-30 faiz artım müşahidə olunur. Bu, onu göstərir ki, bu gün münasibətlər siyasi, sosial sahələrlə yanaşı, həm də iqtisadi sahəni əhatə edir. Müsbət məqam ondan ibarətdir ki, bunlar artıq Azərbaycanda baş verir.

Cənab Prezident, biz bu layihələri sizin baxışınızı reallaşdırmaq üçün birlikdə həyata keçiririk. İqtisadi, sosial dəyərlərə gəldikdə isə biz buradakı insanlara təlimlər keçəcəyik, “know-how” biliklərini ötürəcəyik. “ACWA Power” şirkətində bizim səhmdarlarımız, idarə heyətimiz tərəfindən belə qərar qəbul edilib ki, Azərbaycanı region üçün platforma olaraq istifadə edək. Bilirsiniz ki, bu, təkcə Azərbaycan üçün deyil. Bizim ofisimizin aprel ayından burada tam fəaliyyətə başlayacağının səbəbi də budur. Biz insan kapitalının inkişafı üçün təlimlərin keçirilməsi ilə məşğul olacağıq. Çünki Sizin rəhbərliyinizlə bu ölkədə çox böyük insan kapitalı yaranıb və biz bundan beynəlxalq səviyyədə istifadə etməyə çalışacağıq. Bəli, bu, bizim Azərbaycanda inkişaf etdirməyə çalışdığımız layihə üçün olacaq. Lakin, eyni zamanda, dünya miqyasında rəqabət qabiliyyətliliyimizi və potensialımızı artırmaq üçün insan kapitalından istifadə edəcəyik. Biz öhdəliklərimizə sadiqik və mən hökumətimizin salamlarını Sizə çatdırıram. Lakin biz, eyni zamanda, bu layihədə sağlamlıq və əməyin təhlükəsizliyi, vaxt, keyfiyyət, etibarlılıq baxımından üzərimizə öhdəlik götürürük. Bu layihə 200 milyon dollar dəyərindədir. Eyni zamanda, biz burada istər bərpa olunan enerji mənbələri ilə, istərsə də yüksək səmərəliliklə qazın, yanacağın istehsalı ilə bağlı uzunmüddətli əməkdaşlığa sadiqik. Biz burada olmaqdan çox şadıq. Bəli, biz səudiyyəliyik, lakin yerli şirkət kimi fəaliyyət göstəririk və göstərəcəyik. Çünki biz Sizin sistemin, Azərbaycandakı və regiondakı inkişafın bir parçası olmaqdan qürur duyuruq. Sizinlə görüşmək mənim üçün həqiqətən şərəfdir. Çox xoşbəxtəm ki, Sizinlə görüşmək üçün bizə böyük imkan yaratmısınız. Mən çox məmnunam. Sizin iş cədvəlinizin gərgin olduğunu bilirəm. Bu böyük imkanı bizə yaratdığınız üçün Sizə minnətdarıq. Təşəkkür edirəm, cənab Prezident.

* * *

**Prezident İlham ƏLİYEV** dedi:

- Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə sizə təşəkkür edirəm. Mənim şəxsi salamımı və ən xoş arzularımı Əlahəzrət Kral Salmana, Vəliəhd Şahzadəyə çatdırmağınızı sizdən xahiş edirəm. Qeyd etdiyiniz kimi, Səudiyyə Ərəbistanı və Azərbaycan arasında əlaqələr çox yüksək səviyyədədir və biz çox yaxın dost, tərəfdaş və qardaş ölkələrik. Mən bu əlaqələri qardaşlıq əlaqələri adlandırardım. Biz beynəlxalq institutlarda bir-birimizi dəstəkləyirik. Biz BMT-də, İslam Əməkdaşlıq Təşkilatında birgə fəaliyyət göstəririk. Bildiyiniz kimi, bu yaxınlarda Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi qəbul etdi. Biz bu təşkilata üç il müddətində sədrlik edəcəyik. Sizin və Birləşmiş Ərəb Əmirliklərindən olan dostların dəstəyi ilə bu təşkilatın sədri kimi çox fəal olmaq, təşkilatın üzvlərini və onların maraqlarını dəstəkləmək və bu qurum daxilində daha güclü vəhdət yaratmaq istəyirik. Əlbəttə ki, bunu həmişə dostlarımla, ölkənizin rəhbərləri ilə müzakirə edərkən bildirdiyimiz kimi, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasındakı əlaqələrə bu gün iqtisadi dəstək lazımdır. Buna görə də biz həmişə iqtisadi əməkdaşlığın siyasi əməkdaşlığın səviyyəsinə necə çatdırılması barədə danışırdıq. Bu, asan deyil, lakin bu gün biz çox vacib bir addım atdıq. Həqiqətən də bu, bir çox digər investorlar üçün yol açır. Onlar “ACWA Power” və “Masdar”ın burada olduqlarını, yüz milyon dollarlıq investisiyalar qoyduqlarını, bizim gələcəyimizə etibar etdiklərini görəcəklər. Buna görə bir çox digər investorlar da sizin arxanızca gələcəklər. Həmçinin tərəfdaşların seçilməsi prosesində biz artıq bu sahəyə marağın olduğunu gördük. Bu maraqları yaradan bir çox amillər var. Birincisi, Azərbaycandakı siyasi sabitlik, proqnozlaşdırma, iqtisadi inkişaf, həmçinin şaxələndirilmiş infrastruktur, ixrac imkanları. Qeyd etdiyim kimi, bu gün biz təkcə neft və qazı yox, həm də elektrik enerjisini ixrac edirik. Böyük potensial var, xüsusilə bərpa olunan enerji sektorunda. Beləliklə, bu layihə bizim üçün çox vacibdir. Sizə bu qərarı verdiyiniz üçün minnətdarlığımı bildirmək istəyirəm. Bilirsiniz ki, bu cür böyük qərarlar hökumətin dəstəyi ilə verilir. Bilirik ki, Səudiyyə Ərəbistanının hökuməti bu qərarı dəstəkləyir və buna görə çox minnətdarıq. Bu, bizim aramızdakı yaxın dostluq əlaqələrimizin daha bir əlamətidir.

* * *

Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin icraçı direktoru **Mohammed Jameel Al RAMAHİ** dedi:

- Cənab Prezident, icazə verin, hökumətim, Birləşmiş Ərəb Əmirlikləri və “Masdar” şirkətinin səhmdarları adından bizə bu imkanı yaratdığınız üçün Sizə təşəkkür edim. Karbonsuzlaşdırma dövrü istiqamətində planlarınızda iştirak etmək, onları dəstəkləmək öhdəliyini üzərimizə götürmüşük. Dünyanın gələcəyi karbonsuzlaşdırma istiqamətində ənənəvi enerji istehsalı üsullarından asılılığı azaldaraq daha təmiz gələcəyə doğru gedir. “Masdar” şirkəti olaraq biz diqqətimizi dayanıqlı şəhər icmalarına, bərpa olunan enerji və gələcək texnologiyalara yönəldirik.

Cənab Prezident, bu prosesdə iştirak etmək və Sizin tərəfdən seçilmək böyük şərəfdir. Bilirik ki, Sizin dəstəyiniz, aydın təlimatınız, Sizin baxışınız olmasaydı, biz burada önünüzdə əyləşməyəcəkdik.

Bir daha çox sağ olun, cənab Prezident. Ölkənin və dünyanın qürur duyacağı bir nəticəyə nail olmaq məsələsində bizə etibar edə bilərsiniz, inşallah.

* * *

**Prezident İlham ƏLİYEV** dedi:

- Çox sağ olun. Bu gün Azərbaycandakı enerji layihələrinin inkişafında yeni bir mərhələyə şahidlik edirik. Bu ili - 2020-ci ili belə bir mühüm hadisə ilə başlamaqdan çox məmnunam. Bunun yaxşı gələcəyi olacaq, ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaq. Səudiyyə Ərəbistanından olan turist qonaqları qeyd etdiniz. Zənnimcə, Birləşmiş Ərəb Əmirliklərindən olan turistlərin sayı da buna bərabərdir. Sizin ölkələrinizə səyahət edən azərbaycanlıların da sayı artır. Bu, sadəcə, turistlərə təklif etdiklərimizlə bağlı deyil. Bunun səbəbi insanların burada özünü rahat hiss etməsidir. Azərbaycanlılar sizin ölkələrinizə, sizin vətəndaşlarınız da Azərbaycana səyahət edərkən özlərini öz evlərindəki kimi hiss edirlər. Bu İcra Müqaviləsinin imzalanması mərasimi də ölkələrimiz arasındakı əlaqələri gücləndirəcək.

## Abşeron rayonunun ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Abşeron rayonunun Saray, Ceyranbatan, Mehdiabad, Qobu qəsəbələrinin və Masazır kəndinin ərazilərində ümumi uzunluğu 29,2 kilometr olan avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 19,7 milyon (on doqquz milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 yanvar 2020-ci il*

## Fransanın “Radio Courtoisie” radiosunda Azərbaycanda aparılan islahatlardan danışılıb



Fransanın “Radio Courtoisie” radiosunda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müsahibəsi yayımlanıb.

AZƏRTAC xəbər verir ki, birbaşa yayımda Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hərtərəfli islahatlar, iqtisadiyyat, məhkəmə-hüquq sistemi və dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi istiqamətində görülən işlər haqqında geniş məlumat verib. O, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərindən, iki ölkə arasında son dövrlərdə aparılan danışıqlar prosesindən, Ermənistanın qeyri-konstruktiv mövqeyindən, onun ziddiyyətli bəyanatlarla danışıqlar prosesini pozmasından söz açıb. Azərbaycanın sülh mövqeyi tutduğunu vurğulayaraq onun münaqişənin danışıqlar yolu ilə həllinə çalışdığını bildirib. Qeyd edib ki, problemi öz adı ilə çağırmaq lazımdır. İşğal amili var, 1 milyondan çox azərbaycanlı öz doğma yurdundan didərgin salınıb və onlar qaçqın və məcburi köçkün statusunda yaşayırlar. Bu insanların doğma torpaqlarında yaşamaq və öz mülkiyyətindən istifadə etmək hüququ var. Minsk qrupunun həmsədrləri və beynəlxalq ictimaiyyət diplomatik-siyasi təsirlərini artırmalı və Ermənistandan işğal olunmuş ərazilərdən öz qoşunlarını çıxarmağı tələb etməlidirlər. XXI əsrdə gücdən istifadə edərək dövlətlərin tarixən tanınan sərhədləri dəyişdirilə bilməz.

Hikmət Hacıyev Azərbaycanın xarici siyasətinə də toxunub. O, ölkəmizin Fransa ilə ikitərəfli münasibətlərindən danışaraq Birinci vitse-prezident Mehriban Əliyevanın bu münasibətlərin inkişafında rolunu və ona verdiyi töhfələri xüsusi qeyd edib. Əməkdaşlığın daha da dərinləşdirilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdıran Prezidentin köməkçisi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatında rolu, TANAP və TAP kəmərləri haqqında məlumat verib.

Prezident Administrasiyasının rəsmisi yayım zamanı dinləyicilərin suallarını da cavablandırıb.

## Nazirlər Kabinetində “ACWA Power” və “Masdar” şirkətləri ilə bərpaolunan enerji üzrə pilot layihələrə dair İcra müqavilələri imzalanıb



Yanvarın 9-da Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun iştirakı ilə Nazirlər Kabinetində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” və Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin reallaşdırılmasına dair İcra müqavilələri imzalanıb.

AZƏRTAC xəbər verir ki, imzalanma mərasimində çıxış edən Baş Nazir Əli Əsədov Prezident İlham Əliyevin apardığı uğurlu iqtisadi siyasətin nəticəsində ölkəmizdə enerji təhlükəsizliyinin tam təmin edildiyini deyib. Baş Nazir bildirib ki, bununla bərabər bütövlükdə Azərbaycan iqtisadiyyatının inkişafı, qeyri-neft sektorunun yüksəlişi bizi yeni çağırışlarla üzləşdirir və yeni yanaşmalar tələb edir.

“Son illərdə aparılmış islahatların bir hissəsi bərpaolunan enerji istehsalı ilə bağlıdır. Bu sahədə bir sıra təşəbbüslər uğurla reallaşdırılıb və bərpaolunan energetika sahəsi son dövrlərdə yaşıl iqtisadiyyatın inkişafında önəmli yer tutub. Bu gün, burada xarici şirkətlərlə yeni müqavilələrin imzalanması bu sahədə atılan ciddi addımlardan biridir. Bu müqavilələr Azərbaycana sərmayə yatırılmasını nəzərdə tutur ki, bu da, ilk növbədə, milli iqtisadiyyatımıza stimul verəcək, yeni iş yerləri açılacaq. Bu layihələr ölkəmizin enerji dayanıqlılığını təmin edəcək. Bərpaolunan enerji istehsalı ölkəmizdə yaşıl iqtisadiyyatın inkişafına töhfə verəcək”, - deyə Baş Nazir Əli Əsədov qeyd edib.

Baş Nazir Energetika Nazirliyini, “ACWA Power” və “Masdar” şirkətlərini müqavilələrin imzalanması münasibətilə təbrik edib və uğurlar arzulayıb.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, elektrik enerjisi istehsalının bərpaolunan enerji mənbələri hesabına şaxələndirilməsi Azərbaycan Respublikası Prezidentinin diqqət yetirdiyi prioritetlərdən biridir. Bu müqavilələri imzalamaqla ölkəmizdə bərpaolunan enerji sahəsində yeni inkişaf mərhələsinə başlayırıq. Azərbaycanda bərpaolunan enerji sahəsində ilk xarici tərəfdaşlarımız kimi “ACWA Power” və “Masdar” şirkətləri ilə əməkdaşlığımız dayanıqlı, təmiz enerji ilə bağlı hədəflərimizə çatmaqda qarşılıqlı maraqlarımıza töhfə verəcək.

“ACWA Power” şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyan deyib: “Azərbaycan hökuməti ilə bu müqaviləni imzalamaqdan qürur duyuruq. Bu layihə ölkədə enerji mənbələrini şaxələndirmək məqsədilə bərpaolunan enerjinin payının artırılmasına töhfə verərək Azərbaycan hökumətinin yeni xidmət sahələri, sənaye sektorları və yeni iş yerlərinin yaradılması ilə bağlı təşəbbüslərini dəstəkləyəcək”.

“Masdar” şirkətinin icraçı direktoru Mohammed Jameel Al Ramahi isə qeyd edib ki, 30-dan çox ölkədə bərpaolunan enerji layihələrinin reallaşmasında aparıcı rol oynayan şirkətimiz 200 meqavatlıq günəş enerjisi layihəsini həyata keçirmək üçün Azərbaycanla tərəfdaş olmaqdan məmnundur. On ildən çox təcrübəmizlə biz Azərbaycan hökumətinə və onun təmiz enerjiyə keçidinə dəstək verməkdən qürur duyuruq.

Daha sonra sənədlər imzalanıb. Müqavilələri Azərbaycan tərəfdən Energetika naziri Pərviz Şahbazov, “ACWA Power” şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyan və “Masdar” şirkətinin icraçı direktoru Mohammed Jameel Al Ramahi imzalayıblar. Müqavilələrə əsasən, “ACWA Power” şirkəti ilə 240 meqavat gücündə külək, “Masdar” şirkəti ilə isə 200 meqavatlıq günəş elektrik stansiyalarının tikintisi ilə bağlı pilot layihələr icra ediləcək. Külək və günəş enerjisi layihələri üzrə ümumilikdə, təxminən illik 1,4 milyard kilovat/saat elektrik enerjisinin istehsalı proqnozlaşdırılır.

Xatırladaq ki, “Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu ildə imzaladığı sərəncama uyğun olaraq, bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi məqsədilə 9 beynəlxalq enerji şirkəti ilə əməkdaşlıq əlaqələri yaradılaraq intensiv müzakirələr aparılıb. “ACWA Power” və “Masdar” şirkətləri təkliflərini təqdim edən 7 şirkət arasında üç mərhələdən ibarət seçim prosesi nəticəsində müəyyən edilib. İlk mərhələdə ölkədə müəyyənləşdirilmiş tariflərə uyğun qiymət təklifləri təqdim edən şirkətlər seçilib. İkinci mərhələdə investorlara verilməsi nəzərdə tutulan zəmanətlər və götürüləcək öhdəliklər, layihələrin həyata keçiriləcəyi ərazilər, habelə elektrik enerjisi şəbəkəsində aparılacaq gücləndirmə işləri üzrə ən əlverişli təklifləri verən şirkətlər seçilib. Üçüncü mərhələdə isə seçilmiş şirkətlərlə şərtlərin daha da dəqiqləşdirilməsi və layihələrin iqtisadi cəlbediciliyinin artırılması məqsədilə danışıqlar aparılıb və bu mərhələnin yekunu olaraq, ötən il oktyabrın 31-də şirkətlərin təklifləri olan zərflər açılıb. “ACWA Power” və “Masdar” şirkətləri ilə pilot layihələr üzrə əməkdaşlığa dair qərar qəbul edilib.

Layihələrin icrasına hazırlıq məqsədilə “Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 dekabr tarixli sərəncamı ilə yaradılmış komissiyanın tərkibində fəaliyyət göstərən işçi qrupları tərəfindən tədbirlər həyata keçirilir.

Qeyd edək ki, “ACWA Power” şirkəti hazırda qlobal miqyasda bərpaolunan enerji sahəsində 8000 meqavat olmaqla elektrik enerjisi sahəsində ümumilikdə 30 min 200 meqavat qoyuluş gücünə bərabər istehsal və 45 milyard ABŞ dolları məbləğində investisiya portfelinə malikdir. “Masdar” şirkəti isə bərpaolunan enerji sahəsi üzrə hazırda ümumi qoyuluş gücü 4000 meqavat həcmində istehsal portfelinə sahib olmaqla bu sahəyə indiyədək 8,5 milyard dollar investisiya yatırıb.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə təbriklərimi çatdırır, müdrik rəhbərliyinizlə Azərbaycanda inkişaf və innovasiyanın davam etməsini arzulayıram.

Ötən yeddi ildə Bakı Qlobal Forumu vasitəsilə sülh quruculuğu sahəsində əldə etdiyiniz uğurlara görə Sizi təbrik edirəm və gələcəkdə bu sahədə görəcəyiniz işləri səbirsizliklə gözləyirəm. Yeni ilin Sizə cansağlığı, xoşbəxtlik və uğurlar gətirməsini diləyirəm.

*Hörmətlə,*

***Kərim XƏLİLİ,***
***Əfqanıstanın sabiq vitse-prezidenti,***
***Məhəmməd Taqi Xəlili Əfqanıstanın***
***Azərbaycandakı sabiq səfiri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi təbrik edir, Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətinizdə Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram. Azərbaycan dövləti Sizin rəhbərliyinizlə dünyada böyük nüfuz qazanıb. Bu nüfuz məhz Sizin uzaqgörən siyasətiniz və əsl vətənpərvər kimi mövqeyiniz sayəsində mümkün olub.

Ölkənizin qazandığı möhtəşəm uğurlar, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əldə etdiyi müvəffəqiyyətlər münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Əminəm ki, gələcəkdə bu təşkilat çərçivəsində daha fəal müzakirələr aparılacaq.

*Hörmətlə,*

***Petre ROMAN,***
***Rumıniyanın sabiq Baş naziri (1989-1991)***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Doğum gününüz münasibətilə ən xoş arzularımı qəbul edin. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqının firavanlığı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Gənc təşkilat olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əldə etdiyi möhtəşəm nailiyyətlər münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

*Hörmətlə,*

***Oskar Ribas REYQ,***
***Andorranın sabiq Baş Naziri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırır, Yeni ilinizi təbrik edirəm.

Sizi, həmçinin rəhbəri olduğum, irqçilik və ayrı-seçkiliklə mübarizə kimi ümumi məqsəd ətrafında birləşən şəhərlər şəbəkəsinə daxil olan 500-dən çox şəhərin adından təbrik edirəm.

Qlobal Bakı Forumunda iştirak üçün iki il ərzində ardıcıl olaraq Azərbaycana səfər etməkdən, həmçinin 2020-ci ildə ölkənizə dəvət olunmaqdan şərəf hissi duyuram.

Sizin rəhbərlik etdiyiniz ölkə ildən-ilə inkişaf edərək, dünyanın və bəşəriyyətin taleyi barədə düşünən, sülh və dialoq naminə birgə səy göstərərək mədəni müxtəlifliyə hörmətlə yanaşan çoxsaylı insanların bir araya gəldiyi məkana çevrilib.

Sizinlə bu ilin mart ayında yenidən görüşmək ümidindəyəm.

*Dərin hörmətlə,*

***Benedetto ZAKÇİROLİ,***
***İrqçiliklə Mübarizə üzrə Avropa Şəhərlər***
***Koalisiyasının (ECCAR) prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycanın uzaqgörən və müdrik rəhbəri kimi Sizi doğum gününüz münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, ölkənizə sülh, firavanlıq və tərəqqi arzulayıram.

Həmçinin Sizi planetin gələcəyi naminə beynəlxalq müzakirələrin aparıldığı nüfuzlu platformaya çevrilmiş Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əldə etdiyi möhtəşəm nailiyyətlərə görə təbrik edirəm.

*Hörmətlə,*

***Əmir DOSSAL,***
***Qlobal Tərəfdaşlıq Forumunun sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə “ARETİ” Beynəlxalq Şirkətlər Qrupunun rəhbərliyi və kollektivi adından ən səmimi təbriklərimizi qəbul edin.

Sizin uzaqgörən siyasi xadim keyfiyyətləriniz, perspektiv və cari məqsəd və hədəfləri müəyyənləşdirərkən geniş düşüncə tərziniz, bu məqsəd və hədəflərə çatmaqda əzmkarlığınız Azərbaycan Respublikasının Prezidenti kimi ali dövləti vəzifədə uğurlu fəaliyyətinizi təmin edir.

Əminəm ki, Sizin milli lider və dövlət xadimi istedadınıza, ensiklopedik biliklərinizə, insan və vətəndaş kimi bir çox digər məziyyətlərinizə Azərbaycan Respublikasının qüdrətinin möhkəmlənməsi və onun vətəndaşlarının rifahının yüksəldilməsi yolunda bundan sonra da hələ uzun illər ehtiyac duyulacaqdır.

Doğum gününüz münasibətilə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz enerji, gözəl ölkənizin əməksevər xalqının firavanlığı naminə yeni böyük zəfərlər diləyirik.

*Dərin hörmətlə,*

***İqor MAKAROV,***
***“ARETİ” Beynəlxalq Şirkətlər Qrupunun prezidenti***

# İLHAM ƏLİYEVİN DƏYİŞMƏZ PRİNSİPLƏRİ

## Düşünülmüş, davamlı və uzaqgörən siyasət
## Dəqiq hədəflər
## Milli maraqlara sədaqət
## Xalqa xidmət



*Əvvəli 1-ci səh.*

Beləliklə, **qarşıdakı 3 il ərzində cənab İlham Əliyev Azərbaycan Prezidenti statusu ilə yanaşı, bu iki qlobal beynəlxalq təşkilata rəhbərlik missiyasını da daşıyacaq!**

Yola saldığımız 2019-cu ildə 40-dan çox dövlət və hökumət başçısı Azərbaycana gələrək İlham Əliyevlə görüşmüş, aktual məsələləri müzakirə etmişdir. Dövlət başçısının fəaliyyəti təkcə ikitərəfli əməkdaşlıqlarla məhdudlaşmır. Artıq Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığına İlham Əliyevin təşəbbüsü və fəal iştirakı ilə Azərbaycan-Türkiyə-Rusiya və Azərbaycan-Rusiya-İran əməkdaşlığı formatı da əlavə olunaraq uğurla fəaliyyət göstərməkdədir.

**İlham Əliyev regional əməkdaşlığın ən uğurlu modelini yaradaraq, Azərbaycanı bölgənin səmərəli tərəfdaşlıq platformasına çevirib və fövqəl qüvvələr, həmçinin güclü dövlətlər arasında qarşılıqlı inam və etimad mühiti formalaşdırıb.**

Bu gün Azərbaycan xalqı əmin və arxayındır: dövlət müstəqilliyimiz İlham Əliyevin qüdrətli və qüvvətli əlləri, müdrik və uzaqgörən siyasəti ilə möhkəm qorunaraq durmadan inkişaf etdirilir.

### Düşünülmüş, davamlı və uzaqgörən siyasət

Yenicə qarşılaşdığımız 2020-ci ildə Azərbaycan daha bir rekorda imza atdı!

Söhbət heç də son illərdə ölkəmizin beynəlxalq qurum və təşkilatlarının, reytinq agentliklərinin tərtib etdikləri siyahılarda ön yerlərə çıxmağımızdan, yüksək reytinqlər qazanmağımızdan getmir. Çünki bunlar artıq heç kəsi heyrətləndirməyəcək, təəccübləndirməyəcək beynəlxalq gerçəklikdir!

Hamının görüb bildiyi, daim dilə gətirərək təsdiq etdiyi real faktlar sırasına yeni və möhtəşəm hadisə də əlavə olundu: *Yeni ili qarşılamaqdan ötrü paytaxt Bakıda keçirilən bayram atəşfəşanlığında bir milyondan çox insan iştirak etmişdir!*

Bunlar yerli sakinlərlə bərabər Bakıda yaşayan əcnəbilər, şəhərin qonaqları, bir çox ölkələrdən gələn turistlər idi!

Bu insanlar Yeni ilin ən əlamətdar anını yaşamaq üçün Dənizkənarı bulvara, küçə və meydanlara, müxtəlif ünvanlarda qurulmuş Yeni il yolkalarının ətrafına toplaşmışdılar!

*1 milyon insan öz təhlükəsizliyinin etibarlı qorunmasına əmin olaraq çəkinmədən, qorxmadan kütləvi bayram tədbirinə qatıldı!*

Bəli, cənab İlham Əliyev gördüyü möhtəşəm quruculuq işləri ilə qısa bir müddətdə Bakını yenidən tikib-qurmuş, abadlaşdırmış, hətta keçmiş Qara şəhəri yeni Ağ şəhərə çevirmişdir!

Bu gün Bakı müasir dünya şəhərləri ilə bir sırada dayanır! O, geniş küçə və xiyabanları, park və bulvarları, qədim memarlıq ənənələri ilə müasir memarlıq nümunələrinin bir-birini tamamlayan binaları, hotel, restoran, muzey, istirahət mərkəzləri, UNESKO-nun siyahısına düşmüş tarixi qoruq yerləri ilə diqqət çəkir.

Heydər Əliyev prospektində şüşə örpəyə bürünmüş möhtəşəm göydələnlər, Üç alov qülləsi, Heydər Əliyev Mərkəzi, Büllur Saray, Xalça muzeyi, Bakı bulvarı, ən müasir idman kompleksləri paytaxtımızı dünyaca məşhur edən memarlıq inciləridir!

*Bütün bunlar düşünülərək yaradılıb!*

*Bütün bunlar sevilərək inşa olunub!*

*Bütün bunlar yüksək zövq və sevgidən qaynaqlanıb!*

**Hamısının təşəbbüsçüsü və baş müəllifi isə cənab İlham Əliyevdir!**

❖ ❖ ❖

Düşünülmüş, davamlı və uzaqgörən siyasət təkcə beynəlxalq arenada yox, ölkə daxilində aparılan işlərdə də özünü aşkar göstərir!

Həm yeridilən iqtisadi siyasət, həm tikinti və quruculuq işləri, həm də başlanmış islahatlar Azərbaycan xalqının daha yaxşı yaşamasına, rifahının daim yüksəldilməsinə xidmət edir!

Dəyişməz prinsip olaraq bütün atılacaq addımlar irəlicədən hesablanır, növbəti mərhələyə keçid üçün əsaslar yaradılır, düşünülənlər ardıcıllıqla icra olunur.

*Yığcam şəkildə iki misal:*

Dövlət başçısı regionların sosial-iqtisadi inkişafına dair 4 proqram imzalayıb və onların hamısı tam, üstəlik, bəzi əlavələrlə yerinə yetirilib!

Müstəqilliyin ilk illərində Azərbaycanın regionları paytaxt Bakıdan geridə qalırdı: rayon mərkəzlərinə və digər yaşayış məntəqələrinə elektrik enerjisi fasilələrlə verilirdi, kənd və qəsəbələrdə təbii qaz yox idi, yollar dağılıb bərbad vəziyyətə düşmüşdü, əyalətlərdə içməli su və kanalizasiya xətti mövcud deyildi, işsizlikdən kəndlər boşalmışdı.

Bu gün Azərbaycan nəinki öz əhalisini fasiləsiz elektrik enerjisi və təbii qazla təmin edir, artıq qonşu ölkələrə enerji və qaz satır!

Rayon mərkəzləri içməli su və kanalizasiya xətti ilə təmin olunub.

Ölkədə müasir yol infrastrukturu yaradılmış, hər il min kilometr (16 ildə 16 min kilometr) yol çəkilmiş, artıq kəndarası yolların yenidən qurulması sürətlə davam etdirilir!

*İkinci mühüm məqam:*

Kənddə yaşayanları işlə təmin etmək, insanların şəhərə axınının qarşısını almaq ən vacib vəzifələrdən biri sayılırdı. Aqrar islahatlar keçirildikdən sonra torpaq payını alan kəndlilərin heç də hamısı onu əkib-becərə, bu sahədən daimi qazanc götürə bilmirdilər. Bunun bəzi obyektiv səbəbi vardı və dövlət başçısı İlham Əliyev kəndi yenidən dirçəltmək üçün qətiyyətli və hesablanmış addımlar atmağa başladı.

Ən vacib məsələlərdən biri kəndlərdə ənənəvi bitkiçiliyi, xüsusən böyük əməktutumlu pambıqçılığı, üzümçülüyü, tütünçülüyü, ipəkçiliyi bərpa etmək idi. Emal sənayesinin də dirçəldilməsi gərəkli sayılırdı.

İlham Əliyev bu sahədəki düşüncələrini reallaşdırmaqdan ötrü ardıcıl və sistemli addımlar atmağa başladı.

Həm də bu zaman dövlətin daim öz vətəndaşının yanında olması prinsipini əsas götürdü.

Kəndlinin işləyərək ruzi qazanması üçün təkcə torpaq sahibi olması azdır!

Əkinçilikdə ən mühüm şərtlərdən biri bol suvarma suyunun mövcudluğudur.

Yeni suvarma şəbəkələrinin qurulması isə böyük vəsait və vaxt tələb edirdi.

İlkin mərhələdə su anbarlarının yaradılması və oraya kifayət qədər su ehtiyatı yığılması məsələsi həllini tapdı. Artıq əsrlər boyu Azərbaycan xalqına xidmət edəcək Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları tikilərək istifadəyə verilmişdir.

İkinci mərhələ suvarma suyunun əkin sahələrinə çatdırılması üçün kanallar, suötürücüləri və suvarma qurğularının çəkilməsi oldu.

Paralel olaraq bir sıra yerlərdə subartezian quyuları qazıldı.

İlham Əliyevin təşəbbüsü və göstərişi ilə digər vacib amillər də yaradıldı: yeni məhsuldar taxıl, pambıq, üzüm sortları, tut tingləri gətirilərək əkildi, dünyanın məşhur firmalarından ən müasir texnika - traktorlar, kombaynlar, pambıqyığan maşınlar, səpin aqreqatları və s. alınaraq "Aqrolizinq" xidməti təşkil edildi.

Sahibkarlara güzəştli kreditlər, fermerlərə subsidiyalar, ucuz qiymətə gübrələr verildi. Dövlət xəstəlik və ziyanvericilərə qarşı mübarizədə kəndlinin yanında oldu.

Artıq qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafında böyük nailiyyətlər qazanılmışdır. Respublika üzrə hər hektardan 30-40 sentner pambıq, taxıl məhsulu götürülmüşdür.

Yeni aqroparklar, sənaye məhəllələri yaradılmış, bu hesaba yerlərdə xeyli iş yerləri açılmış, kəndlinin öz məhsulunu xarici bazara çıxarması yolunda bütün maneələr aradan qaldırılmışdır.

*İlham Əliyevin qeyri-neft sektorunun inkişafı təşəbbüsü böyük uğur qazanmış, kəndlinin sosial rifahını xeyli yaxşılaşdırmış, insanları doğma torpağa daha möhkəm bağlamışdır!*

### Öndə milli maraqlardır

Dünya dayanmadan çalxalanır, bulanır, bəzən od tutub yanır!

Dünyanı bu hala salan yalnız zəlzələ və vulkanlar, meşə yanğınları və qasırğalar, selbasmalar deyil!

Həm də uzun illər boyu yaranmış nizamın pozulması, rəngli inqilablar və müxtəlif adlı, demokratiya libaslı böhranlar, güclünün öz iradəsini əvvəlkitək pərdəli, üstüörtülü deyil, açıq-aşkar, hədəvari formada qəbul etdirməsi, bir sözlə, qloballaşmanın fəsadlarıdır.

**Belə bir zamanda gənc, kiçik, eyni zamanda, təbii sərvətlərlə zəngin dövləti qovğalardan sovuşduraraq, təhdid və hədə adlı tufanlardan salamat ötüşdürmək hər kəsin hünəri deyil!**

Üstəlik, 20 faizi işğal altında olub, bir milyondan çox qaçqın və məcburi köçkünlərin dərd-səri və problemlərinin həlli də daim gündəmdə saxlanmalıdır!

Yaşanan çətinliyə və mürəkkəbliyə baxmayaraq, **Azərbaycan daim müstəqil siyasət yürüdür!**

**Bu siyasətin özəyini dövləti və milli maraqların təmini təşkil edir!**

Belə siyasətə görə dünyanın bir çox dövlətləri Azərbaycana hörmət və ehtiramla yanaşırlar!

Ölkəmizin müstəqil siyasətini gözü götürməyənlər, həzm edə bilməyənlər də mövcuddur!

Onların bir qismi üzümüzə gülsə də, arxada diş qıcadır, bəzən nəyi isə bəhanə gətirərək təzyiq və təhdid göstərməyə çalışırlar!

Ancaq əbəs yerə!

**Azərbaycanın İlham Əliyev kimi müdrik, qətiyyətli, uzaqgörən, hər cür təhdidləri, təzyiq cəhdini heçə çıxarmağı bacaran Prezidenti vardır!**

❖ ❖ ❖

Azərbaycan bütün ölkələrlə əməkdaşlığı yalnız qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və bir-birinin işinə qarışmamaq prinsipləri əsasında qurur.

*İlham Əliyevin daim bəyan etdiyi dəyişməz və qətiyyətli mövqeyi belədir: "Heç kim bizim işimizə müdaxilə edə bilməz, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz... Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli insanlar kimi, vətənə bağlı olan insanlar kimi, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək".*

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilsi-Qars kimi transmilli layihələri reallaşdıran, ərazisini yeni qlobal tranzit logistika xəritəsinin mərkəzi kimi təsbit edən, ÜDM-in istehsalında rekordlara imza atan, beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın həll edə bilmədiyi yeganə problem Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir.

Səbəb məlumdur: ATƏT-in Minsk qrupunun dişsiz fəaliyyəti və ikili standartların mövcudluğu!

Lakin münaqişənin həllində Azərbaycanın mövqeyi daimi, dəyişməz və prinsipialdır!

**Nə ermənilər, nə də onların havadarları Azərbaycandan, onun Prezidenti İlham Əliyevdən heç bir güzəşt gözləməsinlər!**

Dövlət başçısı yerli jurnalistlərə ilin yekunları ilə bağlı verdiyi geniş müsahibədə bu mövqeni bir daha qətiyyətlə səsləndirdi:

*"Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bizim danışıqlar prosesində mövqeyimizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Tarixi həqiqət bizim tərəfimizdədir. Biz bunu dünyaya sübut edə bilmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır".*

*"...Biz müstəqil ölkə kimi BMT-yə daxil olanda artıq Azərbaycanın ərazi bütövlüyü qəbul edilib, dəstəklənib və təsdiq edilib. Ona görə həm tarixi ədalət və həm də beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişənin həlli məhz bu prinsiplər əsasında ola bilər".*

### Xalqa xidmət başlıca meyardır

**İlham Əliyev prezidentliyinin ilk günlərindən açıq və şəffaf fəaliyyət göstərib.**

Daim xalqla təmasda olub, insanlarla ünsiyyətə girib, onların arzu və istəklərini dinləyib, həyata keçirib.

Daim xalqa hesabat verib: xalqın nümayəndələri ilə görüşü zamanı vacib məsələlərə toxunub, problemlər və onların həlli ilə bağlı görülən tədbirlərdən danışıb.

Müntəzəm keçirdiyi ənənəvi müşavirələrdə iqtisadi və siyasi sahədəki yeniliklərdən, uğurlardan, qarşıda duran vəzifələrdən və gələcək planlardan ətraflı bəhs edib.

Xarici KİV-ə, yerli jurnalistlərə müsahibələrində konkret rəqəmlər, misallar və nümunələr əsasında dövlətin siyasətindən, iqtisadi islahatlardan, xalqın sosial rifahının yüksəldilməsi sahəsində atılan uğurlu addımlardan maraqlı açıqlamalar verib.

*Bu, cənab İlham Əliyevin bir Prezident kimi iş üslubudur!*

*Bu, cənab İlham Əliyevin xalqa göstərdiyi xidmətlər barədə sistemli qaydada verdiyi hesabatlardır.*

*Bu, cənab İlham Əliyevin dövlət başçısı olaraq fəaliyyətinin aşkarlığını və şəffaflığını təmin edən məqamlardır.*

*Prezidentliyinin bu cəhətini özü belə xarakterizə edir: "Hər bir dövlət məmuru xalqın xidmətçisidir!*

*Xalqın ən böyük xidmətçisi isə mən özüməm!"*

❖ ❖ ❖

İlham Əliyev xalqa söz verməklə, vəd etməklə xidmət göstərmir!

Əvvəlcə onun ehtiyac və çətinliklərini öyrənir, onların həlli üçün maliyyə qaynaqları yaradır, sonra imzaladığı qanun, qərar və sərəncamlar əsasında problemi ədalətli, obyektiv şəkildə yoluna qoyur.

İlham Əliyevin dəfələrlə təkrarladığı bir fikri diqqətə çəkirik: *dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır və ildən-ilə Azərbaycan vətəndaşı daha yaxşı yaşamalıdır!*

İlham Əliyevin yeritdiyi uzaqgörən və məqsədyönlü siyasət nəticəsində elə yaşayır da!

Təkcə yenicə yola saldığımız 2019-cu ildə bu sahədə həyata keçirilən yeniliklərin, sosial islahatlar paketinin bir qismi ilə qısaca tanış olaq:

**Dünyanın bir sıra ölkələrində təsadüf edilən və son illərdə Azərbaycan vətəndaşlarının bir qismini çətin duruma salan problemli kreditlər İlham Əliyevin təşəbbüsü ilə ən uğurlu formada, həm də dövlətin dəstəyi ilə yoluna qoyuldu!**

İnsanlar onları narahat edən borcun məngənəsindən qurtularaq rahat nəfəs aldılar!

Bundan sonra digər sosial məsələlər kompleks şəkildə həllini tapdı: **müavinətlər orta hesabla 50 faiz, yaxud da 2 dəfə, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı.**

Azərbaycanda dünyanın heç bir yerində təsadüf edilməyən işlər də görülür: təkcə qaçqın və məcburi köçkünlərə deyil, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən tikilərək təmir edilmiş mənzillər verilir. Belə ki, **ötən il məcburi köçkünlərə 5 mindən çox, şəhid ailələri, müharibə əlillərinə isə 800-dən artıq ev və mənzil paylanmışdır. 6 mindən çox müharibə əlilinə isə minik maşını verilmişdir.**

Bütün bunlar İlham Əliyev tərəfindən müəyyənləşdirilən dövlət siyasətidir və imkanlar genişləndikcə ondan bəhrələnənlərin sayı da artacaqdır.

❖ ❖ ❖

Daha bir qürur doğuran məqam: **xalqın ürəyindən xəbər verən belə addımların atılmasında Prezident İlham Əliyevlə Birinci vitse-prezident Mehriban xanım Əliyeva çiyin-çiyinə çalışır.** Eyni zamanda, dövlət siyasətinin gerçəkləşməsində Ulu Öndərin adını daşıyan fond da yaxından iştirak edir.

**Mehriban xanım Əliyevanın birbaşa fəaliyyəti sayəsində misilsiz işlər görülmüşdür.** *Azərbaycanın beynəlxalq aləmdə imicini yüksəldən aksiyalar keçirilmiş, Novruz bayramı, tar ifaçılığı, İçəri şəhər və Qobustan tarixi memarlıq nümunələri UNESKO-nun qeyri-maddi, mədəni irs siyahısına salınmışdır.*

Mehriban xanım Əliyevanın uşaqlarla bağlı həyata keçirdiyi mərhəmət, xeyirxahlıq, himayədarlıq tədbirləri isə hər bir Azərbaycan vətəndaşının qəlbini minnətdarlıq hissi ilə doldurur. Heydər Əliyev Fondu tərəfindən yaradılan talassemiyalı, daun sindromlu uşaqların müalicə mərkəzlərində övladlarının bu xəstəlikdən müalicəsi üçün valideynlərə yaxından kömək göstərilir. Uşaq evləri və internat məktəbləri daim nəzarətdə saxlanılır, onların yaşam və qidalanma məsələləri yüksək səviyyədə təmin edilir, belə ünvanlarda vaxtaşırı keçirilən tədbirlərdə Birinci vitse-prezident Mehriban Əliyeva, Leyla və Arzu Əliyevalar şəxsən iştirak edirlər.

Onlar tərəfindən müntəzəm keçirilən bu xeyirxahlıq və mərhəmət aksiyaları artıq dövlət siyasəti səviyyəsinə yüksəlmişdir.

### Yaradılan və yaşadılan digər prinsiplər

Dövlət idarəetməsi çoxcəhətli, əhatəli, geniş və mürəkkəbdir. Bu nəhəng maşının daim saz, işlək və çalışqan vəziyyətdə saxlanılması üçün gecə-gündüz dayanmadan işləmək, hər şeyi nəzarətdə saxlamaq, qabaqlayıcı addımlar atmaq, çoxcəhətli və mürəkkəb proseslərə diqqət yönəltmək son dərəcə zəruridir!

Bu mənada **dövlət başçısı İlham Əliyev iş vaxtı, istirahət və bayram günləri bilmədən daim fəaliyyətdə, dövlət sükanının arxasındadır!**

*Ondakı bu enerji, işgüzarlıq hörmət və məhəbbət, razılıq və qürurla yanaşı bir heyrət də doğurur!*

Xalq öz rəhbəri ilə haqlı olaraq fəxr edir!

Qısa müddətdə müstəqil Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən cənab İlham Əliyev özünəməxsus fəaliyyət prinsiplərini də müəyyənləşdirərək onlara dönmədən əməl edir.

Həmin prinsiplər barədə qısaca bəhs edək.

● *İqtisadi islahatlar sosial müdafiə tədbirləri ilə bərabər aparılır*

Dünya təcrübəsi də göstərir ki, bəzən çox ciddi iqtisadi islahatlar sosial problemlər yarada bilirlər. Odur ki, islahatların gedişi dəqiq hesablamalara əsaslanmalı, daim və ciddi nəzarətdə saxlanılmalıdır. Bunun üçün həm sosial infrastrukturla bağlı layihələr icra edilməli, eyni zamanda, vətəndaşların sosial təminatı yaxşılaşdırılmalıdır.

● *Kadr və struktur islahatları birbirini tamamlayır*

Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışında islahatların yeni mərhələsinin anonsunu vermişdi. Bundan sonra islahatlar prosesi ardıcıllıqla reallaşdırılmağa başlandı, o cümlədən kadr islahatları ilə bağlı məsələlər öz həllini tapdı. Burada da möhkəm qayda var: *müasir dünyagörüşünə malik enerjili gənclərlə təcrübəli, sınaqdan keçmiş insanların birgə işi formalaşdırıldı.* Artıq uğurlu nəticə özünü göstərməkdədir. Yeni kadrlar idarəçilik sisteminə yeni yanaşma, yeni düşüncə tərzi gətirirlər.

● *Siyasət konseptual xarakter daşıyır və ardıcıllıqla icra edilir*

Son 16 ilin tarixinə nəzər salsaq görərik ki, İlham Əliyev tərəfindən atılan addımların heç biri təsadüfi xarakter daşımır. Hər bir addımın arxasında çox böyük təhlil və strateji məqsədlər dayanır. Əslində, kadr islahatları zamanında aparılır. Burada tələsmə və yaxud gecikmə uğursuzluqla nəticələnə bilərdi.

Azərbaycan yeniləşir və müasir dövrə, cəmiyyətimizin gözləntilərinə, ən əsası isə inkişaf strategiyamıza uyğun yeni siması meydana çıxır. İlk növbədə milli maraqlarımız, dövlətçiliyimiz, vətəndaşların rahat yaşaması, sosial rifah və kadrlar bu məqsədlərə qulluq etməlidirlər.

● *Qonşularla yaxşı münasibətlərin qurulması önəmli məsələdir*

Azərbaycan təkcə ixracatçı yox, həm də tranzit ölkədir. Bu isə qonşularla əməkdaşlıq münasibəti yaradılmasını tələb edir. Transmilli layihələri reallaşdıran Azərbaycan həm də "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizini yaradaraq beynəlxalq logistika mərkəzinə çevrilmişdir. Açıq dənizə birbaşa çıxışı olmayan ölkənin Avrasiya nəqliyyat mərkəzlərindən birinə çevrilməsi həm də qonşularla qarşılıqlı maraqlara əsaslanan mehriban əlaqələrin, etibarlı tərəfdaşlığın yaradılmasının nəticəsidir.

● *Beynəlxalq və daxili nəqliyyat layihələri bir-biri ilə əlaqələndirilir*

Hazırda ölkəmizdə müasir nəqliyyat infrastrukturu qurulmuşdur. İşlək vəziyyətdə olan yeddi beynəlxalq hava limanımız var. Xəzər dənizində ən böyük donanmaya sahibik. Azərbaycan indi tranzit hab kimi hava məkanından istifadə edir. Eyni zamanda, respublika daxilində dəmiryolu infrastrukturu yenilənib. Son 16 ildə 16 min kilometr avtomobil yolu inşa edilib. Nəqliyyatın bütün seqmentləri tam müasir standartlara cavab verir. Ələt Dəniz Ticarət Limanı nəhəng bir obyektdir. Əgər əvvəllər Azərbaycan üzərindən daşınan yüklərin son nöqtəsi Qara dəniz idisə, artıq beynəlxalq və daxili nəqliyyat layihələrinin əlaqələndirilməsi vəziyyəti büsbütün dəyişib. Çin-Qazaxıstan-Xəzər-Azərbaycan-Gürcüstan-Türkiyə yoluna Türkmənistan da qoşulub. Artıq Əfqanıstan-Türkmənistan-Azərbaycan-Avropa dəmiryolu xətləri birləşib. İndi İrandan da Avropa istiqamətinə Azərbaycan üzərindən yüklərin daşınması gözlənilir.

Düşünülmüş və ağıllı siyasət öz bəhrəsini verir.

● *Kredit götürmə ancaq texnologiya ixracı ilə bağlı olmalıdır*

Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 17 faizini təşkil edir. Bu, dünya üzrə ən aşağı, yəni ən yaxşı göstəricilərdən biridir. İstənilən vaxt bu borcu bağlamaq mümkündür. Çünki artıq valyuta ehtiyatlarımız 50 milyard dollardır. Hamı bizə həvəslə borc verir. Çünki iqtisadi gücümüzü və maliyyə vəziyyətimizi yaxşı bilirlər. Bu gün bizim üçün yalnız texnologiya ixracı ilə bağlı olan kreditlər maraq doğurur. Başqa sözlə, biz yalnız texnoloji tərəfdən önəmli layihələrə kredit götürürük.

● *Multikultural ənənələrin yaşadılması və inkişafı vacib məsələlərdən biridir*

Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Burada bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu unikal təcrübə artıq bir çox ölkələr tərəfindən öyrənilir, bəzi universitetlərdə Azərbaycanın multikulturalizm modeli tədris edilir. Azərbaycanda bu, həm dövlət siyasətidir, həm də cəmiyyətdən gələn sifarişdir. Bizdə heç zaman milli və dini zəmində qarşıdurma, ziddiyyət baş verməyib. Əgər geniş beynəlxalq əməkdaşlıq da bu istiqamətdə qurularsa, dünya dövlətləri bundan yalnız qazanarlar. Təəssüf ki, Avropada ayrı-seçkilik meyilləri güclənir. Bu isə insanlara bədbəxtlik və faciələr gətirir. Azərbaycan daim öz nümunəsi ilə multikulturalizm prinsiplərinin yaşadılmasını təşviq edir.

● *İdman sağlamlığa xidmət etməklə yanaşı, ölkəmizin təbliği vasitələrindəndir*

Azərbaycan gənci sağlam və güclü olmalıdır. Dövlət başçısı İlham Əliyev ölkədə idmanın genişlənməsi üçün bütün zəruri tədbirləri görür. Bakıda çoxsaylı müasir idman qurğuları və arenaları tikilib istifadəyə verilmiş, regionlarda 40-dan çox olimpiya idman kompleksləri inşa olunmuşdur. I Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını uğurla keçirən Azərbaycan beynəlxalq yarışların ən yaxşı təşkilatçısı imicini qazanmışdır. "Formula-1" yarışları ölkəmizə turist axınını xeyli gücləndirmişdir. Ölkə idmançıları bütün növlər üzrə Olimpiya, Avropa və dünya birinciliklərində fəal iştirak edərək daim bayrağımızı ucaldır, himnimizi səsləndirirlər. Dövlət bu istiqamətdə öz dəstəyini və vəsaitini əsirgəmir.

● *O təklif ki xalqın maraqlarına ziddir, qəbul olunmur*

Azərbaycan əməkdaşlığa açıq ölkədir. Son illərdə gördüyü genişmiqyaslı işlərlə bunu sübuta yetirib. Ancaq bircə şərtlə: bu əməkdaşlıq dövlətin və xalqın maraqlarına cavab versin!

Azərbaycan Avropa İttifaqı ilə enerji sahəsində ciddi əməkdaşlıq edir. *İmzalanması nəzərdə tutulan yeni sazişdə təbii qazın daxili qiyməti ilə ixracın qiymətinin bərabərləşdirilməsi təklif edilir. Dövlət başçısı bununla razılaşmır. Niyə?* Hazırda təbii qazın hər min kubmetri Azərbaycan vətəndaşının 85 faizinə 100 manata satılır. Bu gün Avropa bazarlarında daxili qiymət hər min kubmetrə təqribən 800-1000 manatdır. Satış vaxtı bu qiymət bizə sərf edir. Ölkə vətəndaşı üçün isə belə qiymət artımı yolverilməzdir. Dövlət başçısının mövqeyi qətidir: **bu saziş Azərbaycanın, onun vətəndaşlarının maraqlarına uyğun olmalıdır.**

Azərbaycan Dünya Ticarət Təşkilatına (DTT) üzv olmağa tələsmir. Bunun da səbəbi maraqlıdır. Hələ ki ixracımızın əsas hissəsini neft-qaz məhsulları təşkil edir. Belə məhsulların ixracı üçün DTT-yə üzvlük vacib deyil, kifayət qədər alıcımız var. Əsas vəzifə qeyri-neft sektorunun inkişafı və yerli məhsulların ixracı sayılır. Belə olan halda daxili bazarı qorumaq zəruridir. Əgər biz Dünya Ticarət Təşkilatına üzv olsaq, bizim istehsalçılar (sənaye və kənd təsərrüfatında) böyük problemlərlə üzləşə bilərlər. Çünki daxili bazarı zəbt etmək məqsədilə böyük həcmdə keyfiyyətsiz mallar gətirilərək yerli istehsalçılara böyük zərbə vurula bilər.

Şərtlər məqbul olmadığına görə qəbul edilmir.

❖ ❖ ❖

*Son 16 ildə Azərbaycan çox böyük uğurlara imza atıb. İlk baxışdan elə görünə bilər ki, bütün bu nailiyyətlər asanlıqla qazanılır. Lakin bütün qələbələrin arxasında düşünülmüş və uzaqgörən siyasət, gərgin zəhmət və gecə-gündüz dayanmadan göstərilən fəaliyyət dayanır.*

*İlham Əliyevin müstəqil Azərbaycanın və Azərbaycan xalqının rifahı, xoşbəxtliyi naminə göstərdiyi əzmkar və səmərəli zəhmət vətəndaşlarımız tərəfindən daim hörmət və məhəbbətlə, yüksək qiymətləndirilir.*

**Bəxtiyar SADIQOV**

# Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclası keçirilib

Yanvarın 9-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin növbəti iclası keçirilib.

Akademiyadan AZƏRTAC-a bildirilib ki, iclası giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev son vaxtlar Azərbaycan Milli Elmlər Akademiyasında bir sıra mühüm elmi və elmi-təşkilati istiqamətləri əhatə edən islahatlara başlanıldığını söyləyib. Qeyd edilib ki, islahatların başlıca strateji hədəfi Prezident İlham Əliyev tərəfindən həyata keçirilən və ölkənin sosial-iqtisadi inkişafına yönələn dövlət siyasətinə uyğun olaraq Azərbaycan elmini müasir standartlar səviyyəsində inkişaf etdirməkdir.

Akademik Ramiz Mehdiyev bildirib ki, AMEA-nın 2019-cu il dekabrın 28-də keçirilən ümumi yığıncağında "AMEA-nın 2020-2025-ci illər üçün inkişaf proqramı"nın təsdiq olunması, akademiyanın Nizamnaməsinə bir sıra əlavə və dəyişikliklərin edilməsi, Rəyasət Heyətinin yeni tərkibinin müəyyənləşdirilməsi bu istiqamətdəki islahatların mühüm tərkib hissəsini təşkil edir. Elmi fəaliyyət sahəsində islahatların bundan sonra da ardıcıl olaraq davam etdiriləcəyini bildirən akademik Ramiz Mehdiyev qeyd edib ki, bu gün Rəyasət Heyətinin gündəliyinə çıxarılan əsas məsələlər AMEA-nın ümumi yığıncağının qəbul etdiyi qərarların icrasından irəli gəlir.

AMEA-nın prezidenti akademiyanın strukturunun təkmilləşdirilməsi, müasir elmi prioritetlərin müəyyənləşdirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, dövlətin həyata keçirdiyi siyasətin reallaşmasında, xüsusən qeyri-neft sektorunun inkişafında elmin



rolunun daha da artırılması istiqamətində qarşıda mühüm vəzifələrin dayandığını bildirib.

Sonra AMEA-nın akademik-katibi, müxbir üzv Əminağa Sadıqov "AMEA Rəyasət Heyətinin üzvləri arasında vəzifə bölgüsü" ilə bağlı çıxış edib. Bildirib ki, AMEA-nın ümumi yığıncağında Rəyasət Heyətinin 11 nəfərdən ibarət yeni tərkibi təsdiq edilib. Bununla əlaqədar olaraq, AMEA Rəyasət Heyəti üzvləri arasında yeni vəzifə bölgüsünün müəyyənləşdirilməsi və müvafiq qərarın qəbul edilməsi zərurəti meydana çıxıb.

Əminağa Sadıqov AMEA Rəyasət Heyətinin üzvləri arasında vəzifə bölgüsü layihəsi ilə iştirakçıları tanış edib. Layihə müzakirə olunduqdan sonra AMEA Rəyasət Heyəti üzvləri tərəfindən irəli sürülən rəy və təkliflər nəzərə alınmaqla qəbul edilib.

Daha sonra Ə.Sadıqov "AMEA Rəyasət Heyəti aparatının strukturu haqqında" qərar layihəsini Rəyasət Heyətinin üzvlərinin diqqətinə çatdırıb. Vurğulayıb ki, Rəyasət Heyəti aparatının strukturu və idarəetmə sisteminin, habelə kadrların seçilməsi və yerləşdirilməsi işinin təkmilləşdirilməsi məqsədilə AMEA prezidentinin 2019-cu il 21 noyabr tarixli sərəncamı ilə komissiya yaradılıb. Hazırlanmış təkliflər AMEA-nın prezidentinə təqdim edilib. Təkliflər əsasında AMEA Rəyasət Heyəti aparatının yeni strukturunun layihəsi hazırlanıb. Əminağa Sadıqov iclas iştirakçılarını layihə ilə tanış edib, məsələ müzakirə olunduqdan sonra müvafiq qərar qəbul olunub.

AMEA-nın akademik-katibi, həmçinin gündəlikdəki növbəti məsələ, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın III nəşrinin redaksiya heyətinin yeni tərkibi haqqında məlumat verib. Nəzərə çatdırıb ki, AMEA Rəyasət Heyətinin 2019-cu il 16 oktyabr tarixli qərarı ilə Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın III nəşrinin redaksiya heyətinin tərkibi təsdiq edilib. Keçən müddət ərzində AMEA Rəyasət Heyətinin tərkibində bir sıra dəyişikliklərin olunmasını nəzərə alaraq, redaksiya heyətinin tərkibinin də yenilənməsinə ehtiyac yaranıb. Yeni tərkib müzakirə olunduqdan sonra qəbul edilib.

İclasda görkəmli alim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi Abdulla Qarayevin 110 illik yubileyinin qeyd edilməsi və yubileylə əlaqədar tədbirlər planının hazırlanması haqqında qərar qəbul edilib. Həmçinin akademik Abel Məhərrəmovun 70 illik və AMEA-nın müxbir üzvü Tehran Mustafayevin 60 illik yubileyləri münasibətilə onlara AMEA-nın fəxri fərmanının verilməsi qərara alınıb. AMEA-nın bir sıra əməkdaşlarının elmi təcrübə keçmək və təhsil almaq məqsədilə xarici elmi mərkəzlərə və universitetlərə göndərilməsi ilə bağlı müvafiq qərarlar qəbul edilib.

Sonda bir sıra kadr məsələlərinə baxılıb. Akademik Cavad Abdinov AMEA-nın Fizika İnstitutunun elmi işlər üzrə direktor müavini, fizika elmləri doktoru Ayaz Bayramov həmin institutun innovasiyalar və transfer üzrə direktor müavini, fizika üzrə fəlsəfə doktoru Zaur Süleymanov isə həmin institutun elmi katibi vəzifələrinə, riyaziyyat elmləri doktoru Ədalət Axundov AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsinə, fizika üzrə fəlsəfə doktoru Yusif Şükürlü isə AMEA-nın Şəki Regional Elmi Mərkəzinin direktoru vəzifəsinə təyin ediliblər.

Digər qərarla fizika üzrə fəlsəfə doktoru Elman Yusifov AMEA Zoologiya İnstitutunun direktoru vəzifəsindən azad edilib. İnstitutun direktoru vəzifəsinin icrası müvəqqəti olaraq elmi işlər üzrə direktor müavini, biologiya elmləri doktoru Elşad Əhmədova həvalə edilib. Həmçinin Bayram Babayev akademiya şəhərciyinin müdiri vəzifəsindən azad edilib, iqtisad üzrə fəlsəfə doktoru, dosent Pərviz Həsənov həmin vəzifəyə təyin olunub.

# *Hikmət HACIYEV:* "Azərbaycan ilə Fransa arasında əməkdaşlıq müxtəlif istiqamətlərdə inkişaf edir"

"Azərbaycan və Fransa arasında tərəfdaşlıq yüksək səviyyədədir. Bu tərəfdaşlıq dostluq münasibətlərinə əsaslanır və ölkələrimiz arasında əməkdaşlıq müxtəlif istiqamətlərdə inkişaf edir".

Bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Fransaya səfəri zamanı AZƏRTAC-a müsahibəsində deyib.

Hikmət Hacıyev bildirib ki, Azərbaycan-Fransa əlaqələrindən danışanda, ilk növbədə, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu əlaqələrin inkişafında əldə olunmuş nailiyyətlər qeyd edilməlidir. İki ölkə arasında münasibətlərin inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın da böyük xidmətləri var. Görülən işlər nəticəsində dostluq və tərəfdaşlıq münasibətləri daha da inkişaf edib.

Prezidentin köməkçisi Fransaya səfəri çərçivəsində Yelisey Sarayında, Xarici İşlər, Müdafiə, İqtisadiyyat nazirliklərində və digər dövlət qurumlarında keçirdiyi görüşlərdə səmərəli müzakirələr aparıldığını bildirib. O əlavə edib ki, Prezident İlham Əliyevin Parisdə Prezident Emmanuel Makron ilə görüşü, eləcə də Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfərləri zamanı müəyyən olunmuş məsələlər və onlardan irəli gələn tapşırıqların müzakirəsi baxımından bu qəbildən olan dialoqun davam etdirilməsi çox vacibdir.

Hikmət Hacıyev Fransaya səfəri çərçivəsində fransız jurnalistlər, vətəndaş cəmiyyətinin nümayəndələri və elmi tədqiqat mərkəzlərinin rəhbərləri ilə də görüşlər keçirdiyini qeyd edib. O, görüşlərdə Azərbaycanda dövlət başçısının rəhbərliyi ilə aparılan hərtərəfli islahatlar, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verildiyini vurğulayıb. Prezidentin köməkçisi deyib ki, Azərbaycanda və qonşu regionlarda cərəyan edən proseslər Avropada da çox ciddi şəkildə izlənilir. Belə məsələlərlə bağlı tərəf-müqabillərimizin məlumatlandırılması, onlarla müzakirələr aparılması çox önəmlidir.

## 2020-ci il "Könüllülər ili"dir

# İlahiyyat İnstitutunun tələbələri də könüllülər hərəkatına qoşulacaq

Gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini gücləndirmək, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilib.

"Könüllülər ili" ilə bağlı Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov bildirib ki, ölkəmizdə könüllülük fəaliyyəti artıq bir çox sahəyə nüfuz edərək, böyük hərəkata və ictimai həyatımızın müxtəlif sahələrinə yayılaraq gənclərimizin yaşam tərzinə çevrilib: "Əminliklə deyə bilərik ki, könüllülük hərəkatı öl-



kəmizin hər tərəfinə yayılaraq, cəmiyyətin bütün təbəqələrini əhatə edir. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri hərəkatlarının fəaliyyəti, o cümlədən digər qurumların tərkibində yaranan könüllü qrupları öz təşəbbüskarlıqları, müasir dünyagörüşləri ilə seçilir, ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin təşkilində əvəzsiz xidmətlər göstərirlər".

C.Məmmədov vurğulayıb ki, İlahiyyat İnstitutu da fəaliyyətə başladığı gündən etibarən ölkədə həyata keçirilən könüllülük fəaliyyətində fəal olmağa, ölkəmizin inkişafı üçün səylə çalışmağa, yerli və beynəlxalq tədbirlərdə Azərbaycanı layiqincə təmsil etməyə xüsusi əhəmiyyət verir.

İnstitutda könüllülük fəaliyyətinin sistemləşdirilməsi, könüllülük mədəniyyətinin formalaşdırılması, tələbə-könüllülərin dünyagörüşünün zənginləşdirilməsi və onların təhsildən ayrılmadan könüllü fəaliyyətə cəlb olunmaqla sosial aktivliyinin təmin edilməsi məqsədilə davamlı maarifləndirmə işi aparılır, görüşlər keçirilir: "Bu istiqamətdə baş tutan görüşlərdən biri də BMT-nin Azərbaycan üzrə Könüllülər Proqramının təmsilçisi Kiyoun Kimin "BMT-nin Könüllülər Proqramı" barədə institutumuzda olan təqdimatının keçirilməsidir.

İnstitutumuz Təhsil Nazirliyinin "Bir" Tələbə Könüllü Proqramına da qoşulub. Bu layihə gənclərin fərdi inkişafına, müxtəlif sahələrdə təcrübə qazanmasına, bilik və bacarıqlarını artırmasına, fəal tələbə həyatı yaşamalarına şərait yaradır".

Rektor qeyd edib ki, "Könüllülər ili" çərçivəsində tələbələrin daha fəal olmasına inanır, institutda bu istiqamətdə tədbirlər və maarifləndirici görüşlərin keçirilməsini planlaşdırırlar.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçiriləcək

Azərbaycan Respublikası Prezidentinin 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında sərəncamının icrası ilə əlaqədar Müdafiə Nazirliyində tədbirlər planı təsdiq edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana əsasən Azərbaycan Ordusunda şəxsi heyətə parlaq vətənpərvərlik nümunələrinin təbliği, mənəvi və döyüş ruhunun yüksəldilməsi istiqamətində silsilə tədbirlərin keçirilməsi nəzərdə tulub.

Tədbirlər çərçivəsində hərbi qulluqçular Şəhidlər xiyabanlarını ziyarət edəcək, Müdafiə Nazirliyinin hərbi hissə, müəssisə və təşkilatlarında 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar anım mərasimləri təşkil olunacaq.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzində, Hərb Tarixi Muzeyində kitab, foto və rəsm sərgilərinin, eləcə də səyyar təşviqat qruplarının cəbhə bölgəsində yerləşən hərbi hissələrin şəxsi heyəti ilə görüşlərinin təşkili, xüsusi təyinatlı təhsil müəssisələrində və hərbi hissələrdə "20 Yanvar qəhrəmanlıq və qürur günümüzdür" şüarı altında ədəbi-bədii kompozisiyaların təqdim edilməsi, bədii və sənədi filmlərin nümayişi, "dəyirmi masa" və tematik gecələrin və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Acarlı, Yusifcanlı, Füzuli rayonunun Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Elm xadimləri

# Ziyalı ömrü

Elə insanlar var ki, onlar haqqında düşünəndə özündən asılı olmayaraq ürəyin işıqla dolur. Bu şəxslərin çöhrəsindəki ziyadan qəlbinə pay düşür. Elə bu qəbil insanların ümumi nişanəsinə çevrilmiş ziyalı kəlməsi də öz sirrini, mənasını bu məqamdan açmağa başlayır.

Ziyalılıq bir vəzifə deyil, taledir. Bu taleyi heç kəs özü seçmir. Tutduğu yol, yaşadığı həyat, başqalarının münasibəti insanın ziyalı taleyini müəyyənləşdirir. O da insanların qayğılarına, düşüncələrinə yaxınlığı ilə ziyalı taleyinin seçdiyi insanlardandır.

Professor Alış Qasımovu ilk dəfə tanıyanda o, hələ xeyli gənc idi. Elmdə, pedaqoji fəaliyyətində ona uğur gətirən nailiyyətlərin çoxu hələ irəlidə idi. Bir çox yüksək titullar, rəsmi təltiflər də ad və soyadına ömrün növbəti dönəmlərində əlavə olunacaqdı.

Antik yunan filosofu Platon yazırdı ki, kamilliyə can atan insanlar üçün ən gərəklisi qanunlar haqqında elmdir. Ədalətə, haqqa, qanuna bağlılıq bəşər sivilizasiyasının qədim dövrlərindən həqiqətən də insanlığı səciyyələndirən, onu dünyanın ən ali varlığına, zinətinə çevirən ülvi keyfiyyət sayılıb. Yaşadığı zaman və məkandan asılı olmayaraq daxilindəki işığa doğru üz tutan, ədalətə tapınan insanlar bütün cəmiyyətlərdə sevilib-seçiliblər. Parlaq şəxsiyyətləri, yüksək mənəvi idealları ilə tanınan belə ziyalı şəxsiyyətlərin həyat amalı, ilk növbədə, onların cəmiyyətə fayda verən fəaliyyətində real təcəssümünü tapıb.

Ömrün indi 60-cı zirvəsinə ucalan Alış Qasımov da həyatının hər bir anında məhz belə olmağa çalışıb. Zəhməti, haqqı nahaqqın ayağına verməmək əzmini, yüksək məsuliyyəti, xalqımız, dövlətimiz üçün faydalı olmaq məqsədini bir an da özündən uzağa buraxmayıb.

Onun ömür yolu 1960-cı il yanvarın 10-da Beyləqan rayonunun Milabad kəndindən başlanır. Orta təhsilini doğulub böyüdüyü kənd məktəbində alıb. Elə o illərdən dərslərə marağı, çalışqanlığı, eşitdiyi və mütaliə etdiyi hər mətnin məzmununu, məqsədini dərindən qavraması ilə seçilirdi. Bütün bunlar onun istedadından və işıqlı gələcəyindən xəbər verirdi. Orta məktəbin son siniflərinə doğru qət etdi ki, hüquqşünas olacaq. 1977-ci ildə orta məktəbi bitirib Bakıya gəldi. Burada iki il fəhlə işlədi. Qarşıda əsgəri xidmət vardı. İki il də ordu sıralarında xidmətdə keçdi. Əsgərlikdən qayıtdıqdan sonra yenidən çalışdığı əmək kollektivinə qayıtdı. Hüquqşünas olmaq arzusu bir an da olsun onu tərk etmirdi. Gecə-gündüz imtahanlara hazırlaşırdı. 1982-ci ildə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olundu. Axşam şöbəsində oxuyur, gündüzlər işləyirdi.

Universiteti uğurla başa vurub hüquqşünas ixtisasına yiyələndikdən sonra Bakının Əzizbəyov rayon xalq məhkəməsində çox kiçik bir vəzifədə işləməyə başladı və pillə-pillə irəlilədi. 1989-cu ildə həyat yolu artıq müəyyən iş təcrübəsi toplamış cavan hüquqşünası yenidən məzunu olduğu BDU-ya gətirdi. Burada o, Hüquq fakültəsi dekanlığının metodisti kimi fəaliyyətə başladı. Həmin vaxtdan üzübəri - artıq 30 ildən çoxdur Alış Qasımov şərəfli müəllim ömrü yaşamaqdadır. O, metodistlikdən başlayaraq baş metodist, müəllim, baş müəllim, dosent, dekan müavini kimi vəzifələrdə çalışıb. 2002-ci ildən Mülki proses, əmək və ekologiya hüququ kafedrasının müdiri olub. 2011-ci ildən isə Əmək və ekologiya kafedrasının müdiridir.

1994-cü ildə o, "Əmək və bəzi mülki hüquq münasibətlərindən əmələ gələn əvəzli və əvəzsiz əmlak səlahiyyətlərinin qarşılıqlı əlaqə sistemi" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb. 2003-cü ildə isə hüquqşünas-alim "Azərbaycan Respublikasının əmək hüququnda qarşılıqlı maddi məsuliyyət" mövzusuna həsr olunmuş doktorluq işini müvəffəqiyyətlə müdafiə etməklə hüquq elmləri doktoru elmi dərəcəsi alıb. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Alış Qasımova 1997-ci il yanvarın 13-də dosent, 2010-cu il fevralın 5-də professor elmi adlarını verib. Ötən bu illər ərzində professor Alış Qasımov öz sahəsinin peşəkar mütəxəssislərindən biri kimi hüquqşünas alimlərin yetişdirilməsində böyük rol oynayıb. Onun elmi rəhbərliyi ilə onlarla gənc tədqiqat sahəsində uğurlar qazanaraq elmi dərəcələr alıb. Professor Alış Qasımov hazırda 10-dan çox doktorant və dissertantın elmi rəhbəridir.

Tələbələri onu çox sevirlər. Bu sevginin mənbəyi həm də Alış Qasımovun uzunmüddətli müəllimlik təcrübəsi ilə auditoriyalarda oxuduğu yaddaqalan mühazirələr, tələbələrlə səmimi ünsiyyət qurmaq bacarığı, onlara diqqət və qayğısıdır. Onun pedaqoji fəaliyyətinin əhatə dairəsi təkcə "Əmək hüququ", "Əmək hüququnun müasir problemləri", "Əmək mübahisələri və onların həlli qaydası"ndan oxuduğu mühazirələrlə məhdudlaşmır. Professor Alış Qasımov tələbələrin bilik mənbələrinə olan ehtiyaclarını nəzərə alaraq mütəmadi şəkildə yeni dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, elmi məqalələr yazır. Öz əsərlərində əmək hüququ elminin müasir tendensiyalarına xüsusi diqqət yönəldir. Təsadüfi deyil ki, o, 360-dan çox elmi əsərin, o cümlədən 3 dərsliyin, 13 dərs vəsaitinin, 10 monoqrafiyanın, 233 elmi məqalənin, 13 kitabın, 4 metodik vəsaitin, 17 tezisin, 150-dən artıq qəzet məqaləsinin müəllifidir. 80-ə yaxın tədris proqramı tərtib edib.

Amma hələ bütün bunlar da professor Alış Qasımovun elmi-yaradıcı fəaliyyətinin yalnız müəyyən bir hissəsidir. Görkəmli alim indiyədək 103 əsərin elmi redaktoru, 75 elmi əsərin rəyçisi olub. Onun əsərlərinin bir çoxu xarici ölkələrdə nəşr olunub və alimə ölkə hüdudlarından kənarda da nüfuz qazandırıb. Qələmə aldığı istənilən əsərlə ilk tanışlıq anlarından bunların nə qədər gərgin zəhmət hesabına başa gəldiyini, əsl peşəkar əməyinin nəticəsi kimi ortaya çıxdığını görürsən. Alış Qasımov xarakter etibarilə tələbkar və prinsipial alim-müəllimdir. Bu tələbkarlığı isə ilk növbədə özünə qarşı yönəlib. Ona görə də alimin kitablarında, məqalələrində səthi yanaşmalara, bəsit məqamlara, başqaları tərəfindən irəli sürülmüş tezislərin dolayısı ilə təkrarına rast gəlməzsən. Professorun öz həmkarlarında, rəhbərlik etdiyi kafedranın əməkdaşlarında, yetirməsi olan alimlərdə görmək istədiyi ilk keyfiyyət məhz öz tədqiqatlarına yüksək məsuliyyətlə yanaşmalarıdır. Elə bunun nəticəsidir ki, Əmək və ekologiya kafedrası son illər bir-birindən sanballı araşdırmalar ortaya qoyub və bu da Alış Qasımovun bir elm təşkilatçısı kimi malik olduğu keyfiyyətlərin xoş töhfəsidir.

O, "Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri" elmi məcmuəsinin, "Qanun", "Dövlət və hüquq", "Hüquq və gənclik" jurnallarının, "AR DİN Polis Akademiyasının Elmi Xəbərləri", Ali Məhkəmənin bülleteninin redaksiya heyətinin üzvüdür. Professor Alış Qasımov həmçinin Moskvada nəşr olunan "Трудовое право в России и за рубежом" ("Rusiyada və xaricdə əmək hüququ"), "Пробелы в Российском законодательстве" ("Rusiya qanunvericiliyində boşluqlar"), Minskdə nəşr olunan "Трудовое и социальное право" ("Əmək və sosial hüquq") jurnallarının da redaksiya heyətində üzv kimi təmsil olunur. İndiyə qədər 35-dən çox beynəlxalq, 40-dan çox respublika səviyyəli elmi-praktik konfransda sanballı məruzələri, təqdimatları ilə Azərbaycanın hüquq elmini layiqincə təmsil edib.

Professor Alış Qasımovun peşəkar bacarıqlarından, öz sahəsinin eksperti kimi zəngin biliklərindən digər əlaqəli sahələrdə də geniş istifadə edilir. Alim Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Dövlət və hüquq" bölməsinin katibi, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Hüquq elmləri üzrə Ekspert Şurasının üzvü, Ali Məhkəmə yanında Elmi-Məsləhət Şurasının, AMEA-nın Humanitar və ictimai elmlər bölməsinin nəzdində Hüquq elmləri üzrə Problem Şurasının üzvü olub. Uzun müddət hüquq üzrə elmi dərəcələr verən daimi və birdəfəlik dissertasiya şuralarının sədri və üzvü kimi fəaliyyət göstərib. Hazırda isə Bakı Dövlət Universitetində yaradılmış Dissertasiya Şurasının sədr müavinidir. Konstitusiya Məhkəməsinin plenumlarında "Azərbaycan Respublikası Əmək Məcəlləsinin müvafiq maddələrinin şərh edil-



məsi"ndə ekspert qismində dəfələrlə iştirak etməsi onun yüksək ixtisaslı, bilikli və səriştəli hüquqşünas olmasının daha bir göstəricisidir. O həm də Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvüdür.

Əsl ziyalı cəmiyyətdə gedən ictimai-siyasi proseslərə heç zaman biganə qalmır. Müəyyən bir əqidənin daşıyıcısı kimi öz mövqeyini ortaya qoyur. Aydın baxışları, tutduğu yolla onun rəyinə hörmət bəsləyən başqalarına, o cümlədən tələbələrinə düzgün yol göstərməyə çalışır. Bu mənada Alış Qasımov əqidə adamıdır. O, hər zaman Azərbaycan dövlətinin daha da qüdrətlənməsini istəyir. Cəmiyyətimizdə qanunun aliliyinin, insan hüquq və azadlıqlarının, vətəndaş cəmiyyətinin, sosial ədalətin bərqərar olmasına, yüksək siyasi mədəniyyətin formalaşmasına çalışır. Alim fəhmi ilə duyur ki, bütün bu amallara yetişməyin yeganə yolu cəmiyyətdəki ictimai-siyasi sabitliyin, davamlı inkişaf mühitinin qorunub saxlanmasından, insanların maariflənməsindən, xalqın birdən-birə inqilabi sıçrayışla deyil, sosial təkamül yolu ilə öz hədəflərinə doğru irəliləməsindən keçir. Bu isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursudur. Bu kursu böyük əzmlə davam etdirərək ölkəmizi tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü milli inkişaf siyasətidir.

Tanınmış alim təkcə praktik tədrislə kifayətlənməyi özü üçün məqbul saymır. Cəmiyyətin hüquqi cəhətdən yetkinləşməsi, ölkənin polis, məhkəmə, ədliyyə, prokurorluq sistemində həyata keçirilən mütərəqqi ruhlu islahatların vətəndaşlara adekvat şəkildə çatdırılması üçün biliyinin, qələminin gücünü əsirgəmir.

Cəmiyyətin hüquqi maarifləndirilməsi prosesində yaxından iştirak edir. Ayrı-ayrı məqalələrində Azərbaycanın qısa dövr ərzində keçdiyi demokratik inkişaf mərhələsinin mahiyyətini, ölkəmizdə liberal dəyərlərin təminatını sürətləndirən proseslərin inkişaf dinamikasını, iqtisadi tərəqqinin keyfiyyətcə yeni mərhələsi olan modernləşmə xəttinin əsas xüsusiyyətlərini açıb göstərməyə çalışır.

Alış müəllimin elmi, pedaqoji, ictimai fəaliyyəti də dövlət tərəfindən yüksək qiymətləndirilir. 2000-ci il fevralın 10-da Təhsil Nazirliyinin Kollegiyası onu yüksəkixtisaslı hüquqşünas kadrların hazırlanması sahəsindəki səmərəli fəaliyyətinə görə və BDU-nun 80 illik yubileyi münasibətilə fəxri fərmanla təltif edib. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb. Yüksəkixtisaslı kadrların hazırlanmasında səmərəli elmi-pedaqoji fəaliyyətinə görə 2010-cu il yanvarın 21-də Təhsil nazirinin əmri ilə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı, elm və təhsilin inkişafı sahəsində yüksək nailiyyətlər əldə etdiyinə, bu sahənin inkişafına xüsusi töhfə verdiyinə, Universitetin sosial-mədəni inkişafında fəal iştirak etdiyinə görə 2019-cu il noyabr ayının 25-də "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə, qanunvericiliyin təkmilləşdirilməsi və eyni zamanda, hüququn ayrı-ayrı sahələrinin inkişaf etdirilməsində verdiyi töhfələrə görə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin xüsusi medalı, habelə AHİK İcraiyyə Komitəsinin 13 aprel 2016-cı il tarixli qərarı ilə "Həmkarlar ittifaqında xidmətlərinə görə" medalı ilə təltif olunub. Bu mükafatların hər biri onun alim-müəllim əməyinə, xalqımızın maariflənməsinə, dövlətimizin inkişafına təmənnasız xidmətdə keçən mənalı illərinə verilmiş layiqli qiymətdir.

***Zahid CƏFƏROV,***
***Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq üzrə elmlər doktoru***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Yanvarın 9-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 5 yanvar 2020-ci il tarixli iclasının protokolu təsdiq olunub.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Müraciətlər seçki prosesinin iştirakçısı olan maraqlı subyektlərin və səlahiyyətli nümayəndələrin iştirakı ilə komissiyanın iclasında geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.



Qeyd edək ki, Milli Məclisə seçkilərə dair müraciətlərin müzakirəsi zamanı namizədin qeydə alınmaması ilə bağlı müvafiq dairə seçki komissiyasının qərarı ləğv edilib və namizədliyi siyasi partiya tərəfindən irəli sürülən bir nəfərin Milli Məclisə seçkilərdə namizədliyi qeydə alınıb.

Beynəlxalq müşahidəçilərin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib və cari məsələlərə baxılıb.

**Qərar № 7/41**

## Mərkəzi Seçki Komissiyasının 5 yanvar 2020-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 5 yanvar 2020-ci il tarixli iclas protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2020-ci il*

**Qərar № 7/42**

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 yanvar 2020-ci il tarixli 4 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 73 saylı Lənkəran şəhər seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Qabil Sabir oğlu 3 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 2 yanvar 2020-ci il tarixli 28/225 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd Q.S.Məmmədov müraciətində bildirmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 73 saylı Lənkəran şəhər seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, həmin seçki dairəsinin ərazisində seçicilərin imzası toplanılaraq imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, lakin mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə, yəni mülkiyyətində olan torpaq sahələri (0,95 ha) və 5 nəqliyyat vasitəsinin olduğu haqqında məlumatı təqdim etmədiyindən, həmçinin namizədliyinin müdafiəsi üçün imza vərəqələrində toplanmış seçici imzalarından 100-ü şübhə doğurduğundan, bunlardan 38-i Göyşaban bələdiyyəsi tərəfindən toplandığından dairə seçki komissiyasının müvafiq qərarı ilə namizəd kimi qeydə alınmasından imtina edilmişdir.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, o iclasda iştirak etməkdən imtina etmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş Q.S.Məmmədovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını əmlak barəsində məlumatda mülkiyyət hüququ əsasında namizədə məxsus mövcud olan digər əmlakının göstərilməməsi, təqdim edilmiş imza vərəqələrindəki imzaların 100-nün etibarsız hesab edilməsi, həmçinin bunlardan 38-nin toplanmasında Göyşaban bələdiyyəsinin iştirak etməsi, imza vərəqəsində imzaların qoyulma tarixinin fərqli olması, imza vərəqəsində seçicilərə aid şəxsiyyət vəsiqələrinin məlumatlarının qeyri-düzgün göstərilməsi, seçki dairəsinin hüdudlarından kənarda seçici imzalarının toplanması və seçici imzalarının Qeydiyyat şöbəsinin bazasındakı imzalardan tam fərqli olduğunun müəyyən edilməsi ilə əsaslandırmışdır.

Araşdırma ilə əlaqədar müvafiq sənədlər dairə seçki komissiyasından alınaraq nəzərdən keçirilmiş və müəyyən edilmişdir ki, namizəd Q.S.Məmmədovun təqdim etdiyi imza vərəqələri və onlara əlavə edilən seçki sənədlərinin yoxlanılması prosesində dairə seçki komissiyası seçki qanunvericiliyinin bəzi müddəalarını düzgün tətbiq etməmişdir.

Belə ki, namizəd mülkiyyət hüququ əsasında mövcud olan və ona məxsus daşınmaz və daşınan əmlak barədə məlumatı düzgün vermişdir. Bununla əlaqədar Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış işçi qrupunun 2020-ci il 8 yanvar tarixli rəyindən müəyyən edilir ki, Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətindən verilmiş arayışa əsasən namizəd Q.S.Məmmədovun əmlak barəsində məlumatda göstərdiyi əmlaklardan başqa ona məxsus digər əmlak dövlət qeydiyyatına alınmamışdır.

Həmçinin Q.S.Məmmədov tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələri yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış işçi qrupuna təqdim edilmiş və imza vərəqələrindəki 496 imza ilə bağlı məlumatların düzgünlüyünün yoxlanılması barədə işçi qrupunun 8 yanvar 2020-ci il tarixli Protokoluna və rəyinə əsasən namizədin təqdim etdiyi imza vərəqələrində 38 seçici imzasının Göyşaban bələdiyyəsi tərəfindən toplanması, 19 seçicinin şəxsiyyət vəsiqəsinə aid məlumatlarının qeyri-düzgün göstərilməsi və seçki dairəsinin hüdudlarından kənarda imzaların toplanması halları müəyyən olunmuşdur.

Beləliklə, namizədliyin qeydə alınması üçün təqdim edilmiş imzalardan etibarsız hesab edilən seçici imzaları çıxıldıqdan sonra qalan imzalar Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin qeydə alınması üçün kifayət etmədiyinə görə onun namizədliyinin qeydə alınmasından imtina edilməsi əsaslı olmuşdur.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməli, Q.S.Məmmədovun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 2 yanvar 2020-ci il tarixli 28/225 saylı Qərarının əsaslandırma hissəsindən namizədin əmlakı barədə məlumatın düzgün göstərilməməsi, imza vərəqəsində imzaların qoyulma tarixinin fərqli olması və seçici imzalarının Qeydiyyat şöbəsinin bazasındakı imzalardan tam fərqli olması hissələri çıxarılmalı, qərar digər hissələrdə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 57.1-ci, 60.2.4-cü, 147.1-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 73 saylı Lənkəran şəhər seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Q.S.Məmmədovun 2 yanvar 2020-ci il tarixli 3 saylı müraciəti qismən təmin edilsin, dairə seçki komissiyasının 2 yanvar 2020-ci il tarixli 28/225 saylı Qərarının əsaslandırma hissəsindən namizədin əmlakı barədə məlumatın düzgün göstərilməməsi, imza vərəqəsində imzaların qoyulma tarixinin fərqli olması və seçici imzalarının Qeydiyyat şöbəsinin bazasındakı imzalardan tam fərqli olması hissələri çıxarılsın, qərar digər hissələrdə dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2020-ci il*

**Qərar № 7/46**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.4-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Cəfər Əli Qurban oğlu 30 saylı Suraxanı birinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2020-ci il*

**Qərar № 7/43**

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 3 yanvar 2020-ci il tarixli 5 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 15 saylı Yasamal birinci seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Humayzadə Oqtay Xudayat oğlu 3 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) ərizə ilə müraciət edərək deputatlığa namizədliyinin qeydə alınmasından imtinaya dair 15 saylı Yasamal birinci seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 3 yanvar 2020-ci il tarixli 3/9 saylı qərarını mübahisələndirmiş, qərarın ləğv edilərək namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin araşdırılmasına xitam verilməsinə dair rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma prosesində müraciətin araşdırılması müddəti Mərkəzi Seçki Komissiyasının 6 yanvar 2020-ci il tarixli qərarı ilə 3 gün müddətinə uzadılmışdır.

2020-ci il yanvarın 9-da 15 saylı Yasamal birinci seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Humayzadə Oqtay Xudayat oğlu Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək həmin müraciətin araşdırılmasına xitam verilməsini xahiş etmişdir.

Ərizə şəxsən şikayətçi O.X.Humayzadə tərəfindən yazılıb imzalandığına və onun iradəsini ifadə etdiyinə görə təmin edilməli və muraciətin araşdırılmasına xitam verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 15 saylı Yasamal birinci seçki dairəsindən namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Humayzadə Oqtay Xudayat oğlunun 3 yanvar 2020-ci il tarixli 5 saylı müraciətinin araşdırılmasına xitam verilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2020-ci il*

**Qərar № 7/44**

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 6 yanvar 2020-ci il tarixli 11 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 30 saylı Suraxanı birinci seçki dairəsi üzrə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Sadıqova İlahə Artur qızı 6 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizədliyinin qeydə alınmasından imtinaya dair 30 saylı Suraxanı birinci seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 2 yanvar 2020-ci il tarixli 5/26 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və pozulmuş hüquqlarının bərpa olunaraq namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, onun həm araşdırmada, həm də Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Namizəd İ.A.Sadıqova müraciətində qeyd etmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 30 saylı Suraxanı birinci seçki dairəsi üzrə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən müvafiq qaydada irəli sürmüş, həmin dairənin ərazisində seçicilərin imzasını toplayaraq imza vərəqələrini və ona əlavə edilmiş digər zəruri sənədləri dairə seçki komissiyasına təqdim etmiş, ancaq dairə seçki komissiyası müvafiq qərarı ilə əsassız olaraq onun namizədliyini qeydə almamışdır.

İ.A.Sadıqovanın müraciəti ilə əlaqədar dairə seçki komissiyasından tələb edilərək alınan müvafiq sənədlər araşdırılmışdır. Müəyyən edilmişdir ki, namizədliyin qeydə alınmasından imtina edilməsi barədə dairə seçki komissiyasının 2 yanvar 2020-ci il tarixli 5/26 saylı qərarı ilə İ.A.Sadıqova tərəfindən təqdim edilmiş 10 imza vərəqəsindəki 500 imzadan 88 imza işçi qrupu üzvünün rəyi əsasında etibarsız hesab edildiyindən və həmin imzalar çıxıldıqdan sonra yerdə qalan imzalar Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədliyin qeydə alınması üçün kifayət etmədiyindən Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 8 yanvar 2020-ci il tarixli protokol və rəylərdən görünür ki, İ.A.Sadıqovanın namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqələrində olan seçici imzaları Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmışdır. Belə ki, namizəd tərəfindən toplanılmış 500 seçici imzasından 467-si etibarlı hesab edilmişdir ki, bu da namizədin qeydə alınması üçün kifayət edir.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Qeyd edilənlərə əsasən şikayətin təmin edilməsi və dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Beləliklə, aparılan araşdırmanın nəticələrinə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, dairə seçki komissiyasının İ.A.Sadıqovanın namizəd kimi qeydə alınmasından imtinaya dair 2 yanvar 2020-ci il tarixli 5/26 saylı qərarı ləğv edilməli və o, həmin seçki dairəsindən deputatlığa namizəd kimi qeydə alınmalıdır.

Yuxarıda göstərilənləri əsas gətirərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 30 saylı Suraxanı birinci seçki dairəsi üzrə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Sadıqova İlahə Artur qızının 6 yanvar 2020-ci il tarixli 11 saylı müraciəti təmin edilsin, onun namizəd kimi qeydə alınmasından imtinaya dair həmin dairə seçki komissiyasının 2 yanvar 2020-ci il tarixli 5/26 saylı qərarı ləğv edilsin.
2. 30 saylı Suraxanı birinci seçki dairəsi üzrə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Sadıqova İlahə Artur qızının həmin seçki dairəsi üzrə deputatlığa namizədliyi qeydə alınsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2020-ci il*

**Qərar № 7/45**

## 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 9 yanvar 2020-ci il tarixli 70 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Yevlax rayonunun Yuxarı Qarxun kənd sakini İbrahimov Elman Möhübbət oğlu 9 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək 48 saylı Yevlax seçki dairəsi üzrə Yuxarı Qarxun bələdiyyəsinə keçirilən seçkilərin saxtalaşdırılmasını iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci yarımbəndinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Yevlax rayonunun Yuxarı Qarxun kənd sakini İbrahimov Elman Möhübbət oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 yanvar 2020-ci il tarixli 70 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2020-ci il*

## XİN Avropa Parlamentinin Azərbaycanda parlament seçkilərində müşahidəçi qismində iştirak etməyəcəyi ilə bağlı məlumata münasibət bildirib

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Avropa Parlamentinin ölkəmizdə keçiriləcək parlament seçkilərində müşahidəçi qismində iştirak etməyəcəyi ilə bağlı yaydığı məlumata münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayevanın bununla əlaqədar açıqlamasında deyilir: "Bu il fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı aidiyyəti üzrə Milli Məclis tərəfindən parlament nümayəndə heyətlərinə və üzvü olduğumuz Parlament assambleyalarına, həmçinin Xarici İşlər Nazirliyi tərəfindən ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, ATƏT, MDB, GUAM, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, QDİƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq və regional təşkilatlara dəvət məktubları göndərilib. Yəni, Azərbaycan tərəfi əsasən üzvü və iştirakçısı olduğu təşkilatlara 9 fevral seçkilərini izləmək dəvəti ilə müraciət ünvanlayıb. Konkret olaraq Avropa Parlamentinin yaydığı məlumata gəldikdə isə, əvvəlcə onu vurğulamaq istərdim ki, Avropa Parlamentinin yaydığı bu məlumatın qurumun seçkiləri müşahidə etməkdən imtina etməsi kimi qiymətləndirilməsi tamamilə yanlışdır. Birincisi, Azərbaycan tərəfi Avropa Parlamentinə belə bir dəvət ünvanlamayıb ki, o da bu dəvətdən imtina etsin. Ümumiyyətlə, qeyd etmək istərdim ki, ölkəmizin Avropa Parlamenti qarşısında hər hansı bir öhdəliyi yoxdur. İkincisi, bu, Avropa Parlamentinin prosedur qaydalarına uyğun olaraq verilmiş, yəni, qurumun müşahidəçi kimi iştirak etmədiyi seçkilərdə üzvlərin şəxsi qismində iştirak edəcəyinə dair yayılmış bir məlumatdır.

Qeyd etmək istərdim ki, bütün seçkilər ərəfəsində şəffaflığın təmin olunması məqsədilə seçkilərdə iştirak edən müşahidəçilərin qeydiyyatı ilə bağlı məlumatlar Mərkəzi Seçki Komissiyası tərəfindən mütəmadi qaydada ictimaiyyətə təqdim olunur".

# Milli Məclisə seçkilər qarşısında

## "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq şəhər və rayonlarda 118 seçki dairəsi üzrə 128 açıq və 128 qapalı yer müəyyən edilib

| Sıra № | Şəhər, rayon | Seçki dairəsinin sıra sayı və adı | Açıq yer | Qapalı yer |
|---|---|---|---|---|
| 1. | Binəqədi | 8 saylı Binəqədi birinci | 7-ci mikrorayon S.S.Axundov küçəsi 24E ünvandakı "Vətən" futbol klubunun stadionu | 8-ci mikrorayon, S.S.Axundov küçəsi 6 ünvanda yerləşən Şuşa Dövlət Musiqili Dram Teatrı |
| | | 9 saylı Binəqədi ikinci | M.Rəsulzadə qəsəbəsi, R.Behbudov küçəsi, Dendroloji parkın ərazisi | Azadlıq prospekti 181 ünvanda yerləşən Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının akt zalı |
| | | 10 saylı Binəqədi üçüncü | Binəqədi qəsəbəsi II mədən, korpus 83 ünvandakı İdman Sağlamlıq Kompleksinin stadionu | Biləcəri qəsəbəsi, Y.Hüseynov küçəsi 18 ünvanda yerləşən Dəmiryolçuların Mədəniyyət evi |
| 2. | Qaradağ | 11 saylı Qaradağ | Sahil qəsəbəsi, Tamponaj İdarəsinin qarşısındakı meydan | Sahil qəsəbəsi, Tamponaj İdarəsinin akt zalı |
| | | 12 saylı Qaradağ-Binəqədi-Yasamal | Lökbatan qəsəbəsi, 28 May küçəsində yerləşən Neftçi İdman klubunun "Qaradağ" Təlim İdman Bazası | Lökbatan qəsəbəsi, Ə.Əmirov adına Mədəniyyət Sarayı |
| 3. | Xəzər | 13 saylı Xəzər-Pirallahı | Mərdəkan qəsəbəsi, S.Yesenin küçəsi 2 ünvandakı Mədəniyyət sarayının qarşısındakı meydan | Mərdəkan qəsəbəsi, S.Yesenin küçəsi 44 ünvanda yerləşən Mədəniyyət evi |
| | | 14 saylı Xəzər | Şüvəlan qəsəbə parkı | Şüvəlan qəsəbə Mədəniyyət evi |
| 4. | Pirallahı | 13 saylı Xəzər-Pirallahı | Pirallahı qəsəbəsi, S.Vurğun küçəsi, 56a ünvandakı meydan | Pirallahı qəsəbə İdman Kompleksi |
| 5. | Yasamal | 15 saylı Yasamal birinci | N.Hikmət və H.Zərdabi küçələrinin kəsişməsindəki meydan | Ayna Sultanova küçəsi 13 ünvanda yerləşən Azərbaycan Texniki Universitetinin qapalı idman sarayı |
| | | 16 saylı Yasamal ikinci | Ş.Mehdiyev küçəsi 577-ci məhəllədəki meydan | H.Cavid prospekti 25 ünvanda yerləşən Azərbaycan Texniki Universitetinin akt zalı |
| | | 17 saylı Yasamal üçüncü | Bakıxanov küçəsi 2 ünvanda yerləşən meydan | B.Bağırova küçəsində yerləşən Respublika Uşaq Filarmoniyasının akt zalı |
| 6. | Nərimanov | 18 saylı Nərimanov-Nizami | Xəlil Rza Ulutürk və M.Nərimanov küçələrinin kəsişməsindəki meydan | Z.Bünyadov prospekti 20/63 ünvanında yerləşən Aşqarlar Kimyası İnstitutunun akt zalı |
| | | 19 saylı Nərimanov birinci | A.Nemətulla küçəsi 23-də yerləşən "Minayə" şadlıq sarayının qarşısındakı meydan | Ə.Əliyev küçəsi 3 ünvanda yerləşən "Azərinşaatlayihə" Dövlət Baş Layihə-Konstruktor və Texnoloji İnstitutunun akt zalı |
| | | 20 saylı Nərimanov ikinci | N.Nərimanov küçəsi 55 ünvanda yerləşən "Cıdır" restoranının qarşısındakı meydan | M.Kaveroçkin küçəsi 34 ünvanda yerləşən Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının akt zalı |
| 7. | Nəsimi | 21 saylı Nəsimi birinci | 20 Yanvar küçəsi 2527 ünvandakı məhəllə stadionu | Ə.Salamzadə küçəsi 28 ünvanda yerləşən Asiya Universitetinin akt zalı |
| | | 22 saylı Nəsimi ikinci | M.Qardaşları küçəsi 113 ünvandakı "Bakı Tikiş Evi" ATSC-nin qarşısındakı meydan | M.Sənani küçəsi 12 ünvanda yerləşən Qızlar Universitetinin akt zalı |
| | | 23 saylı Nəsimi-Səbail | Xətai prospekti 42 ünvandakı "Azintur" ASC-nin qarşısındakı meydan | D.Əliyeva küçəsi 230 ünvanda yerləşən "Azərbaycan Dəmir Yolları" QSC-nin akt zalı |
| 8. | Nizami | 24 saylı Nizami birinci | Keşlə qəsəbəsi, Yenikənd küçəsindəki meydan | Keşlə qəsəbəsi, O.Vəliyev küçəsi 1 ünvanında yerləşən Mədəniyyət evi |
| | | 25 saylı Nizami ikinci | B.Nuriyev küçəsi 69 ünvanındakı idman meydançası | İ.Məmmədov küçəsi 148 ünvanında yerləşən Mədəniyyət evi |
| 9. | Sabunçu | 26 saylı Sabunçu birinci | Bakıxanov qəsəbəsi, M.F.Axundov küçəsindəki idman meydançası | Bakıxanov qəsəbəsi Y.Əliyev küçəsində yerləşən Gənclər evi |
| | | 27 saylı Sabunçu ikinci | Balaxanı qəsəbəsi, M.İbrahimov küçəsindəki meydan | Sabunçu qəsəbəsi, Ə.Məmmədəliyev küçəsi 2 ünvanda yerləşən "Abşeron Yüksək Gərginlikli Elektrik Şəbəkəsi" MMC-nin akt zalı |
| | | 28 saylı Sabunçu üçüncü | Maştağa qəsəbəsi, M.Hüseynzadə küçəsi 1 ünvandakı "Görüş" şadlıq sarayının qarşısındakı meydan | Maştağa qəsəbəsi, M.Şəfai küçəsi 35-də yerləşən Maştağa Mədəniyyət Mərkəzi |
| 10. | Səbail | 29 saylı Səbail | 20-ci yaşayış sahəsi, 6 saylı Peşə məktəbinin yaxınlığındakı meydan | Badamdar qəsəbə Mədəniyyət evi |
| 11. | Suraxanı | 30 saylı Suraxanı birinci | Hövsan qəsəbə Mədəniyyət sarayının qarşısındakı meydan | Zığ qəsəbə Mədəniyyət evi |
| | | 31 saylı Suraxanı ikinci | Qaraçuxur qəsəbəsi, "Rəvan" Futbol Akademiyasının stadionu | Qaraçuxur qəsəbəsi, Qurban Abbasov adına Mədəniyyət sarayı |
| | | 32 saylı Suraxanı üçüncü | Bülbülə qəsəbəsi, "ATEF" Şirkətlər Qrupu MMC-nin binasının qarşısındakı meydan | Əmircan qəsəbəsi, S.Mənsur adına Mədəniyyət evi |
| 12. | Xətai | 33 saylı Xətai birinci | Qaçaq Nəbi küçəsi 7 ünvandakı idman meydançası | Sarayevo küçəsi 20 saylı ünvanda yerləşən "Bakı" kinoteatrı |
| | | 34 saylı Xətai ikinci | Aşıq Ələsgər küçəsi 21 ünvandakı idman meydançası | Neapol küçəsi, 8 saylı ünvanda yerləşən 171 nömrəli məktəbin akt zalı |
| | | 35 saylı Xətai üçüncü | İ.İsmayılov küçəsi 30 ünvandakı idman meydançası | Gəncə prospekti 99 saylı ünvanda yerləşən M.Ə.Sabir adına kitabxananın akt zalı |
| | | 36 saylı Xətai dördüncü | Zığ yolu 3 ünvanında yerləşən meydan | H.Z.Tağıyev adına Toxuculuq-tikiş kombinatının klubu |
| 13. | Gəncə | 37 saylı Nizami birinci | Zəfər Tağı Meydanı | Gəncə Dövlət Universitetinin akt zalı |
| | | 38 saylı Nizami ikinci | Gülüstan yaşayış massivi, Ə.Əliyev parkı | Gəncə şəhər Məhsəti Mərkəzi |
| | | 39 saylı Kəpəz birinci | Füzuli parkındakı meydan | Gəncə şəhəri 39 nömrəli tam orta məktəbin akt zalı |
| | | 40 saylı Kəpəz ikinci | Gəncə şəhər stadionu | Gəncə şəhəri 3 nömrəli tam orta məktəbin akt zalı |
| 14. | Sumqayıt | 41 saylı Sumqayıt birinci | Sumqayıt Olimpiya İdman Kompleksinin stadionu | Sumqayıt Olimpiya İdman kompleksinin qapalı zalı |
| | | 42 saylı Sumqayıt ikinci | Kimyaçılar Mədəniyyət sarayının qarşısındakı meydan | Sumqayıt şəhər Gənclər evi |
| | | 43 saylı Sumqayıt üçüncü | Lüdviqsafen parkındakı meydan | Sumqayıt şəhər Uşaq İncəsənət Məktəbi |
| | | 44 saylı Sumqayıt-Xızı | "Kapital Bank Arena" stadionu | M.Hüseynzadə küçəsində yerləşən İnternat Tipli Gimnaziyanın akt zalı |
| 15. | Xızı | 44 saylı Sumqayıt-Xızı | Xızı şəhərinin girişindəki boş sahə | Xızı rayonu, Şorabad qəsəbə Sənətkarlıq evi |
| 16. | Şirvan | 46 saylı Şirvan | Şirvan Olimpiya İdman Kompleksinin stadionu | Şirvan şəhər Mədəniyyət Mərkəzi |
| 17. | Mingəçevir | 47 saylı Mingəçevir | Y.Məmmədzadə adına şəhər stadionu | Mingəçevir Dövlət Dram Teatrı |
| 18. | Yevlax | 48 saylı Yevlax | Yevlax şəhər stadionunun qarşısı | Yevlax şəhər "Bəşir Səfəroğlu adına Xalq Teatrı" |
| | | 49 saylı Yevlax-Mingəçevir | Aran qəsəbə stadionu | Aran qəsəbə Mədəniyyət evi |
| 19. | Naftalan | 96 saylı Goranboy – Naftalan | Naftalan şəhər stadionu | Qaşaltı Qaraqoyunlu kənd klubu |
| 20. | Abşeron | 45 saylı Abşeron | Abşeron Olimpiya İdman Kompleksinin stadionu | Xırdalan şəhər Mədəniyyət Mərkəzi |
| | | 50 saylı Abşeron-Qobustan | Qobu qəsəbə stadionu | Qobu Sənətkarlıq evi |
| 21. | Qobustan | 50 saylı Abşeron-Qobustan | Qobustan şəhər stadionu | Qobustan rayon Mədəniyyət evi |
| 22. | Qusar | 51 saylı Qusar | Qusar şəhər stadionu | Qusar şəhər İncəsənət Məktəbinin akt zalı |
| 23. | Quba | 52 saylı Quba | Alekseyevka kənd stadionu | Quba rayon Mədəniyyət mərkəzi |
| | | 53 saylı Quba-Qusar | Birinci Nügədi kənd stadionu | Amsar kənd mədəniyyət evi |
| 24. | Şabran | 54 saylı Şabran-Siyəzən | Atatürk küçəsi 1 ünvandakı idman meydançası | Şabran rayon Mədəniyyət Mərkəzi |
| 25. | Siyəzən | 54 saylı Şabran-Siyəzən | Siyəzən şəhər stadionu | Siyəzən rayon Mədəniyyət Mərkəzi |
| 26. | Xaçmaz | 55 saylı Xaçmaz şəhər | Xaçmaz Olimpiya İdman Kompleksinin stadionu | Xaçmaz Olimpiya İdman Kompleksinin örtülü zalı |
| | | 56 saylı Xaçmaz kənd | Ləcət kənd stadionu | Xudat şəhər Mədəniyyət evi |
| 27. | Kürdəmir | 57 saylı Kürdəmir | Kürdəmir şəhər stadionu | Kürdəmir rayon Gənclər evi |
| 28. | Hacıqabul | 58 saylı Hacıqabul-Kürdəmir | Hacıqabul şəhər stadionu | Hacıqabul rayon Folklor klubu |
| 29. | Salyan | 59 saylı Salyan | Salyan Olimpiya İdman Kompleksinin stadionu | Salyan rayon Mədəniyyət Mərkəzi |
| | | 60 saylı Salyan-Neftçala | Qarabağlı kənd stadionu | Yenikənd kənd Mədəniyyət evi |
| 30. | Neftçala | 61 saylı Neftçala | Neftçala şəhər stadionu | Neftçala rayon Mədəniyyət evi |
| 31. | Saatlı | 62 saylı Saatlı | Saatlı Olimpiya Idman Kompleksinin stadionu | Saatlı rayon Mədəniyyət Mərkəzi |
| | | 65 saylı Saatlı - Sabirabad - Kürdəmir | Varxan kənd stadionu | Məzrəli kənd klubu |
| 32. | Sabirabad | 63 saylı Sabirabad birinci | Sabirabad şəhər stadionu | Sabirabad rayon Mədəniyyət Mərkəzi |
| | | 64 saylı Sabirabad ikinci | Qaratəpə kənd stadionu | Nizami kənd Mədəniyyət evi |
| 33. | Biləsuvar | 66 saylı Biləsuvar | Biləsuvar Olimpiya İdman Kompleksinin stadionu | Biləsuvar rayon Mədəniyyət Mərkəzi |
| 34. | Cəlilabad | 67 saylı Cəlilabad şəhər | Cəlilabad Olimpiya İdman Kompleksinin stadionu | Cəlilabad Olimpiya İdman kompleksinin qapalı zalı |
| | | 68 saylı Cəlilabad kənd | Günəşli kənd stadionu | Alar kənd 1 saylı kənd tam orta məktəbin iclas zalı |
| | | 69 saylı Cəlilabad-Masallı-Biləsuvar | Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin stadionu | Göytəpə şəhəri "İdeal" şadlıq sarayı |
| 35. | Masallı | 70 saylı Masallı şəhər | Masallı Olimpiya İdman Kompleksinin stadionu | N.Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzi |
| | | 71 saylı Masallı kənd | Boradigah İdman Kompleksinin qarşısındakı meydan | Boradigah qəsəbə bələdiyyəsinin inzibati binasının akt zalı |
| 36. | Yardımlı | 72 saylı Yardımlı-Masallı | Yardımlı şəhər stadionu | Yardımlı rayon Mədəniyyət Mərkəzi |
| 37. | Lənkəran | 73 saylı Lənkəran şəhər | Lənkəran şəhər Mədəniyyət Mərkəzinin qarşısındakı meydan | Lənkəran şəhər Mədəniyyət Mərkəzi |
| | | 74 saylı Lənkəran kənd | Girdəni kənd stadionu | Girdəni kəndi, "Röyal" şadlıq evi |
| | | 75 saylı Lənkəran-Masallı | Şağlaser kənd stadionu | Şağlaser kənd Mədəniyyət evi |
| | | 76 saylı Lənkəran-Astara | Şürük kənd stadionu | "Aqrolizinq" ASC-nin Lənkəran Dövlət Maşın Sınaq Stansiyasının iclas zalı |
| 38. | Astara | 77 saylı Astara | Park-bulvar ərazisindəki meydan | Astara rayon Mədəniyyət Mərkəzi |
| 39. | Lerik | 78 saylı Lerik | Lerik şəhəri, "Gənclik" stadionu | Lerik rayon Mədəniyyət Mərkəzi |
| 40. | İmişli | 79 saylı İmişli | İmişli Olimpiya İdman Kompleksinin stadionu | İmişli Olimpiya İdman Kompleksinin örtülü zalı |
| | | 80 saylı İmişli-Beyləqan | İmişli Aqrolizinq ASC-nin həyəti | Allahmədətli kənd klubu |
| 41. | Beyləqan | 81 saylı Beyləqan | Beyləqan Olimpiya İdman Kompleksinin stadionu | Beyləqan rayon Mədəniyyət Mərkəzi |
| 42. | Ağcabədi | 82 saylı Ağcabədi | Ağcabədi şəhər stadionu | Ağcabədi rayon Mədəniyyət Mərkəzi |
| | | 83 saylı Ağcabədi-Füzuli | Hindarx qəsəbə stadionu | Hindarx qəsəbəsi "Yunis" şadlıq sarayı |
| 43. | Füzuli | 84 saylı Füzuli | Horadiz şəhəri, Qəhrəmanlar parkının qarşısındakı meydan | Horadiz şəhər Muğam Mərkəzi |
| 44. | Şamaxı | 85 saylı Şamaxı | Şamaxı Olimpiya İdman Kompleksinin stadionu | Şamaxı rayon Mədəniyyət Mərkəzi |
| 45. | İsmayıllı | 86 saylı İsmayıllı | İsmayıllı şəhəri, Heydər Əliyev Parkının "Yay filarmoniyası" | İsmayıllı rayon Mədəniyyət Mərkəzi |
| 46. | Ağsu | 87 saylı Ağsu-İsmayıllı | Ağsu şəhər stadionu | Ağsu rayon Mədəniyyət sarayı |
| 47. | Göyçay | 88 saylı Göyçay | İnçə kənd stadionu | Bığır kənd Mədəniyyət evi |
| | | 89 saylı Göyçay-Ağdaş | Göyçay şəhər stadionu | Göyçay Olimpiya İdman Kompleksinin örtülü zalı |
| 48. | Ağdaş | 90 saylı Ağdaş | Ağdaş Olimpiya İdman Kompleksinin stadionu | Ağdaş rayon Mədəniyyət Mərkəzi |
| 49. | Ucar | 91 saylı Ucar | Ucar şəhər stadionu | Ucar rayon Mədəniyyət Mərkəzi |
| 50. | Zərdab | 92 saylı Zərdab-Ucar | Zərdab şəhər stadionu | Zərdab rayon Mədəniyyət evi |
| 51. | Bərdə | 93 saylı Bərdə şəhər | Bərdə şəhər stadionu | Bərdə rayon Mədəniyyət evi |
| | | 94 saylı Bərdə kənd | Qaradəmirçi kəndi stadionu | "Leyla" şadlıq sarayı |
| 52. | Tərtər | 95 saylı Tərtər | Tərtər şəhər stadionu | Tərtər rayon Mədəniyyət Mərkəzi |
| 53. | Goranboy | 96 saylı Goranboy - Naftalan | Goranboy rayon Subartezian Quyuları İstismarı İdarəsinin arxasındakı boş ərazi | Goranboy rayon Mədəniyyət evi |
| | | 97 saylı Goranboy - Ağdam - Tərtər | Qızılhacılı qəsəbə meydanı | Qızılhacılı qəsəbə Mədəniyyət evi |
| 54. | Şəmkir | 98 saylı Şəmkir şəhər | Şəmkir Olimpiya İdman Kompleksinin stadionu | Ə.Cavad adına Şəmkir rayon Mədəniyyət mərkəzi |
| | | 99 saylı Şəmkir kənd | Zəyəm qəsəbə stadionu | Zəyəm qəsəbə 2 nömrəli tam orta məktəbin iclas zalı |
| | | 100 saylı Şəmkir-Daşkəsən | Kür qəsəbə stadionu | Kür qəsəbə 2 nömrəli tam orta məktəbin akt zalı |
| 55. | Daşkəsən | 100 saylı Şəmkir-Daşkəsən | Daşkəsən şəhərinin girəcəyində, fəaliyyət göstərməyən Avtovağzalın qarşısındakı meydan | Daşkəsən rayon Mədəniyyət Mərkəzi |
| | | 101 saylı Göygöl-Daşkəsən | Xoşbulaq kəndi, Gənclərin təlim və istirahət mərkəzinin stadionu | Xoşbulaq kəndi, Gənclərin təlim və istirahət mərkəzinin iclas zalı |
| 56. | Göygöl | 101 saylı Göygöl-Daşkəsən | Göygöl Olimpiya İdman Kompleksinin stadionu | Göygöl şəhər Gənclər evi |
| 57. | Samux | 102 saylı Samux-Şəmkir | Samux şəhər stadionu | Samux rayon Mədəniyyət evi |
| 58. | Gədəbəy | 103 saylı Gədəbəy | Gədəbəy şəhəri, Yaşıl Teatr | Gədəbəy rayon Mədəniyyət Mərkəzi |
| | | 104 saylı Gədəbəy-Tovuz | Novosaratovka kənd stadionu | Novosarotovka kənd klubu |
| 59. | Tovuz | 105 saylı Tovuz | Tovuz Dövlət Sosial-İqtisad Kollecinin idman meydançası | Qovlar şəhər Mədəniyyət evi |
| | | 106 saylı Tovuz-Qazax-Ağstafa | Tovuz Olimpiya İdman Kompleksinin yanındakı meydan | Tovuz rayon Mədəniyyət Mərkəzi |
| 60. | Qazax | 107 saylı Qazax | Qazax şəhər stadionu | Qazax rayon Mədəniyyət evi |
| 61. | Ağstafa | 108 saylı Ağstafa | Ağstafa şəhər stadionu | Ağstafa Rayon Mədəniyyət Mərkəzi |
| 62. | Balakən | 109 saylı Balakən | Balakən Olimpiya İdman Kompleksinin stadionu | Balakən rayon Mədəniyyət Mərkəzi |
| 63. | Zaqatala | 110 saylı Zaqatala | Yeni Suvagil kənd futbol meydançası | Yeni Suvagil kənd Mədəniyyət evi |
| | | 111 saylı Zaqatala-Balakən | Zaqatala Olimpiya İdman Kompleksinin stadionu | Zaqatala rayon Mədəniyyət evi |
| 64. | Qax | 112 saylı Qax | Qax Olimpiya İdman Kompleksinin stadionu | Qax rayon Mədəniyyət evi |
| 65. | Şəki | 113 saylı Şəki şəhər | Şəki şəhər stadionu | S.Vurğun adına Folklor evi |
| | | 114 saylı Şəki kənd birinci | Aşağı Göynük kənd stadionu | Oxud kənd Folklor evi |
| | | 115 saylı Şəki kənd ikinci | Turan qəsəbəsinin mərkəzindəki meydan | Turan qəsəbə Folklor klubu |
| 66. | Qəbələ | 116 saylı Qəbələ | Qəbələ Olimpiya İdman Kompleksinin stadionu | Rayon Mədəniyyət evi |
| 67. | Oğuz | 117 saylı Oğuz-Qəbələ | Oğuz Olimpiya İdman Kompleksinin stadionu | Oğuz Mədəniyyət Mərkəzinin binası |
| 68. | Ağdam | 118 saylı Ağdam şəhər | Bərdə şəhər stadionu | Bərdə Subartezian İdarəsinin akt zalı |
| | | 119 saylı Ağdam kənd | Ağdam Olimpiya İdman Kompleksinin stadionu | Quzanlı Mədəniyyət evi |
| 69. | Cəbrayıl | 120 saylı Cəbrayıl – Qubadlı | Biləsuvar rayonu ərazisində Cəbrayıllı məcburi köçkünlər üçün tikilmiş 4 saylı qəsəbənin stadionu | Biləsuvar rayonu ərazisində Cəbrayıllı məcburi köçkünlər üçün tikilmiş 4 saylı qəsəbə klubu |
| 70. | Laçın | 121 saylı Laçın | Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində, Şamkənd musiqi məktəbinin qarşısı | Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsindəki klub |
| 71. | Xankəndi | 122 saylı Xankəndi | Bakı şəhəri Xətai rayonu, Ukrayna dairəsinin yaxınlığındakı ərazi | Bakı şəhəri, Sabunçu rayonu Ramana-450 qəsəbəsi N.Gəncəvi adına Xankəndi tam orta məktəbinin zalı |
| 72. | Kəlbəcər | 123 saylı Kəlbəcər | Gəncə şəhəri, 1500 ailəlik məcburi köçkün şəhərciyindəki meydan | Gəncə şəhəri 1500 ailəlik məcburi köçkün şəhərciyindəki Mədəniyyət evi |
| 73. | Şuşa | 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd | Bakı şəhəri, Sabunçu rayonu, Ramana-450 qəsəbəsi, Malıbəyli kənd tam orta məktəbin idman meydançası | Bakı şəhəri, Sabunçu rayonu, Ramana-450 qəsəbəsi, Malıbəyli musiqi məktəbinin zalı |
| 74. | Xocalı | 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd | Goranboy rayonu, Aşağı Ağcakənd qəsəbə meydanı | Goranboy rayonu, Aşağı Ağcakənd qəsəbəsi, Xocalı rayon Mədəniyyət evi |
| 75. | Xocavənd | 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd | Beyləqan rayonu ərazisində salınmış məcburi köçkün qəsəbəsinin stadionu | Beyləqan rayonu ərazisində salınmış qəsəbədə musiqi məktəbinin iclas zalı |
| 76. | Zəngilan | 125 saylı Zəngilan-Qubadlı | Abşeron rayonu, Masazır qəsəbəsi, məcburi köçkünlər üçün salınmış şəhərciyin mərkəzi meydanı | Abşeron rayonu, Masazır qəsəbəsi, məcburi köçkünlər üçün salınmış şəhərciyin Mədəniyyət evi |
| 77. | Qubadlı | 125 saylı Zəngilan-Qubadlı | Sumqayıt şəhəri, 42-ci məhəllə, 10 saylı Peşə liseyinin qarşısındakı meydan | Sumqayıt şəhəri, 11-ci mikrorayon, Q.İlyasov adına 1 saylı Qubadlı şəhər tam orta məktəbinin iclas zalı |

**Qeyd:** 2020-ci il Milli Məclisə seçkilərlə əlaqədar Naxçıvan Muxtar Respublikası üzrə müəyyən edilmiş açıq və qapalı yerlər Naxçıvan Muxtar Respublikasının KİV-ində dərc olunub.

# Azərbaycan qısa zamanda enerji idxalçısından ixracatçısına çevrilmişdir

*Əvvəli 1-ci səh.*

Biz nəinki təkcə region dövlətlərinin, həmçinin bəzi Avropa ölkələrinin enerji təchizatında vacib rol oynayırıq.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin sədri vəzifəsinə təyin olunan Vüqar Əhmədovu qəbul edərkən bu sahədə görülən işlərin ölkə üçün mühüm əhəmiyyət daşıdığını bildirərək demişdir: "Bu, çox məsuliyyətli vəzifədir və enerji təminatı hər bir ölkə üçün strateji sahədir. Son illər ərzində ölkəmizdə bu sahədə çox böyük işlər görülübdür. Regionların sosial-iqtisadi inkişafına dair 2004-cü ildə qəbul edilmiş I Dövlət Proqramı çərçivəsində enerji güclərinin yaradılması nəzərdə tutulurdu. Artıq biz buna tam nail olduq. Bu gün bizim təqribən 1000 meqavatlıq əlavə enerji güclərimiz var ki, bu güclər həm ehtiyat təşkil edir, həm də ixrac potensialımızı genişləndirir. Keçən il ölkəmiz elektrik enerjisinin ixracından təqribən 60 milyon dollar civarında vəsait əldə edibdir".

Dövlət başçısı, həmçinin vurğulayıb ki, son 15 il ərzində təqribən 3000 meqavata yaxın yeni generasiya gücləri yaradılıb. Bu da bir çox elektrik stansiyalarının inşası sayəsində mümkün olub. Beləliklə, Azərbaycan bu istiqamətdə dünya miqyasında aparıcı ölkələrdən birinə çevrilib. Sözsüz ki, istehsal olunan enerjinin istehlakçıya itkisiz çatdırılması da mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə paylayıcı şəbəkələrin dövrün tələblərinə cavab verəcək səviyyəyə gətirilməsi vacibdir.

Elektrik enerjisi sektorunda keçirilən uğurlu siyasət sayəsində paylayıcı xətlər tamamilə yenilənib. Bütün şəhərlərdə yarımstansiyaların, transformatorların təzələnməsi sayəsində bu problem həll olunub. Lakin kənd yerlərində həmin problem tam aradan qaldırılmayıb. Dövlət başçısı cəmiyyətin yeni sədrinə bu problemin həll edilməsi tapşırığını verdi.

Prezident İlham Əliyev onu da vurğuladı ki, Azərbaycan sürətlə inkişaf edir. Ötən il qeyri-neft sənayemizdə 14 faiz artım olub. Digər sahələrdə də inkişaf var. İnkişaf isə enerjiyə tələbatı artırır. Dövlət başçısı qarşıdakı illərdə əhalinin də artacağını nəzərə alaraq buna indidən hazır olmağı tapşırdı. Enerji təsərrüfatını normal vəziyyətdə saxlamaq üçün bütün istismar qaydaları yüksək səviyyədə təmin edilməlidir. Digər mühüm faktor kimi ölkənin dayanıqlı enerji ilə təminatı üçün yarımstansiyaları dairəvi qaydada birləşdirməklə qəzalardan qorumaqdır.

Bir daha vurğulayaq ki, Prezident İlham Əliyev 2003-cü ildən bəri Azərbaycan enerji sektorunun yüksək səviyyəyə qalxması üçün çox iş görüb. Məsələn, dövlət başçısının təşəbbüsü ilə ötən dövr ərzində qoyuluş gücü 780 MVt olan "Cənub", 525 MVt gücündə "Sumqayıt", 400 MVt "Şimal-2", 300 MVt "Səngəçal", 105 MVT "Şahdağ", 87 MVt "Astara", 87 MVt "Naxçıvan", 87 MVt "Şəki", 87 MVt "Xaçmaz", 64 MVT "Naxçıvan qaz-turbin", 16,5 MVt "Lerik", Bakıda 105 MVt olan elektrik stansiyaları tikilərək istifadəyə verilib.

Eyni zamanda Azərbaycanın təbii imkanlarından istifadə edilərək elektrik enerji gücünün artırılması da unudulmayıb. Belə ki, Prezident İlham Əliyevin tapşırığı ilə 2005-ci ildə "Vayxır", 2010-cu ildə "Göyçay-1", 2011-ci ildə "Astara-1", "Balakən-1", "Qusar-1" su elektrik stansiyaları inşa edilib.

Görülən işlər sayəsində Azərbaycan bu gün enerjiyə olan tələbatını tam ödəmək iqtidarındadır. Bununla yanaşı, biz qonşu və region ölkələrinə də elektrik enerjisi ixrac edirik. Qarşıdakı illərdə enerjiyə olan tələbatın artacağını nəzərə alaraq indidən bir sıra işlərin görülməsi planlaşdırılır. Bu da ölkəmizin elektrik enerjisi ilə daim yüksək səviyyədə təminatından xəbər verir.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Müavinət alanlar pensiyaçılarla eyni hüquqa malik oldular

## Hazırda yaş həddi 61 il 6 ay olan qadınlar və 64 il 6 ay olan kişilər pensiya hüquqları olmadıqda, bu ayın 1-dən yaşa görə müavinət hüququ qazanıb

*Əvvəli 1-ci səh.*

Dövlət başçısının 2019-cu il dekabrın 16-da təsdiqlədiyi yeni qanunlar əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət etməklə yanaşı, sosial təminat sisteminin təkmilləşdirilməsində növbəti addımdır. Bu qanunlarla yaşa görə əmək pensiyası və yaşa görə müavinət hüququ verən yaşlar arasında uyğunsuzluq aradan qaldırılıb. Hər iki sosial təminat növü üzrə hüquq yaranan yaş hədləri eyniləşdirilib.

Bu ilin əvvəlinədək qadınlar (yaşa görə pensiya hüququ olmadıqda) yaşa görə müavinət hüququnu 62 yaşda, kişilər (yaşa görə pensiya hüququ olmadıqda) isə 67 yaşda qazanırdı. Cari ilin əvvəlindən isə bu yaş həddi pensiya hüququ yaranan yaş həddi ilə eyniləşdirilir. Beləliklə, 2020-ci il yanvarın 1-dən qüvvəyə minən yeni qanunla hazırda yaş həddi 61 il 6 ay olan qadınlar və yaş həddi 64 il 6 ay olan kişilər (yaşa görə pensiya hüquqları olmadıqda), bu ayın 1-dən yaşa görə müavinət hüququ qazanıblar.

Yaşa görə müavinətin təyinatı ötən il elektronlaşdırılıb və həmin şəxslərə bu müavinət elektron qaydada təyin olunur. Onlara yaşa görə müavinət təyin edilməsi üçün hər hansı quruma müraciət etmələrinə və sənəd təqdim olunmasına ehtiyac yoxdur. Vətəndaşa elektron təyinat və müavinətin hansı bankdan alınması barədə bildiriş SMS vasitəsilə göndəriləcək. SMS göndərilməsi üçün adına nömrə yoxdursa, vətəndaş məlumatı nazirliyin 142-Çağrı Mərkəzindən və ya nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun yerli şöbəsindən əldə edir. Bundan sonra yalnız şəxsiyyət vəsiqəsini təqdim etməklə müvafiq bankdan kartı alır.

Bununla yanaşı, yeni qanunvericiliyə görə, beş və daha çox uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadınların yaşa görə müavinət hüququ qazanmaq üçün yaş həddi hər uşağa görə 1 il azaldılır. Misal üçün, beş uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadının yaşı hazırda 56 yaş yarımdırsa və pensiya hüququ yoxdursa, o zaman ona yaşa görə müavinət təyin edilir. Uşaqların sayı 6 olduqda bu yaş göstəricisi 55 yaş yarım, 7 olduqda 54 yaş yarım və s. yaş həddinə enir. Sağlamlıq imkanları məhdud uşağını səkkiz yaşınadək tərbiyə etmiş anaların da yaşa görə müavinət hüququ qazanmaq üçün yaş həddi 5 il azaldılır.

Eləcə də ana vəfat etdiyinə və ya ana ilə nikaha xitam verildiyinə, yaxud ana valideynlik hüququndan məhrum edildiyinə görə 5 və daha çox uşağı növbəti nikah bağlamadan, təkbaşına səkkiz yaşınadək böyüdən ataların, habelə 5 və daha çox uşağı övladlığa götürüb təkbaşına səkkiz yaşınadək böyüdən ataların, həmçinin 5 və daha çox uşağı səkkiz yaşınadək böyüdən qəyyum kişilərin yaş həddi 5 il azaldılmaqla yaşa görə müavinət hüququ yaranıb.

***"Azərbaycan"***

# Ədəbiyyatla zamanın çulğalaşdığı zəngin mənbə

Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin Moskvadakı "Xudojestvennaya literatura" nəşriyyatında "Ədəbiyyat, zaman və müasirlik" adlı kitabı nəşr olunub.




"Ədəbiyyat və zaman" adlı giriş məqaləsi ilə açılan kitabın "Ədəbiyyat nəzəriyyəsi" bölməsində Azərbaycan ədəbiyyatındakı ədəbi cərəyanların tarixi təkamül proseslərindən, estetikası və poetikasından, habelə əsas yaradıcılarının xidmətlərindən geniş bəhs olunub. Bu bölmədə, eyni zamanda ədəbi növlərin və janrların təsnifatı məsələsinə yenidən baxılaraq satiradan ədəbi növlərdən biri kimi söz açılır.

Azərbaycan ədəbiyyatı tarixinə həsr edilmiş portret-oçerklər akademik İsa Həbibbəylinin müəllifi olduğu dövrləşdirmə konsepsiyası əsasında və xronoloji qaydada təqdim edilib. Kitabda intibah dövrü Azərbaycan ədəbiyyatı Nizami Gəncəvi, orta əsrlər İmadəddin Nəsimi, erkən yeni dövr Molla Pənah Vaqif, tənqidi realizm epoxası Cəlil Məmmədquluzadə və Eynəli bəy Sultanov, romantizm Hüseyn Cavid, sovet dövrü ədəbiyyatı isə Səməd Vurğun kimi sənətkarlarla təmsil olunub.

Monoqrafik tədqiqatın "Folklorşünaslıq və mədəniyyət" bölməsində "Kitabi-Dədə Qorqud" dastanlarındakı Təpəgöz boyunun tipologiyası izah edilib, Gəmiqaya-Qobustan mədəniyyəti, Orxon-Yenisey abidələri təhlildən keçirilib.

"Rusiya ictimai-ədəbi mühiti" bölməsində "Mixail Şoloxov və Azərbaycan ədəbiyyatı" oçerki yerləşdirilib, Nobel mükafatı laureatı, məşhur fizik, akademik Jores Alfyorovla müsahibə oxuculara çatdırılıb.

"Dünya ədəbiyyatı" bölməsində Azərbaycan-Çin ədəbi-mədəni və elmi əlaqələrindən, "Oxşar ədəbi talelər" rubrikasında isə türk xalqları ədəbiyyatlarının dövrləşdirilməsindən, Azərbaycan-qazax və türkmən ədəbi əlaqələrindən bəhs edilir, dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov "ədəbi mogikan" adlandırılır.

Kitabda Azərbaycan Elmlər Akademiyasının təsis edilməsi və fəaliyyətinin ilk mərhələsinə, fizika və lirikanın qarşılıqlı əlaqələrinə, ədəbiyyatda multikultural dəyərlərin bədii ifadəsinə dair məqalələr "Elmin üfüqləri" bölməsində yer alıb.

"Ədəbiyyat, zaman və müasirlik" kitabının elmi redaktoru AMEA-nın müxbir üzvü Tehran Mustafayev, məsul redaktoru isə Azərbaycan Yazıçılar Birliyi Moskva bölməsinin məsul katibi, filologiya elmləri doktoru Abuzər Bağırovdur.

Kitab Azərbaycan ədəbiyyatının tarixi və nəzəriyyəsinin, görkəmli yaradıcılarının, böyük ənənələrinin rusdilli məkanda elmi səviyyədə təbliği üçün zəngin mənbədir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

Replika əvəzi

# Daşınmaz əmlakın icbari sığortası, yoxsa əmlak sahibinin zorla cərimələnməsi

## Nəyə görə dövlətin bu mühüm qərarı maarifləndirməklə deyil, cərimə hədəsi ilə həyata keçirilməyə başlanıb

Yeni il gələr-gəlməz, bayram tətili bitər-bitməz, əhali qapısında, varsa və istifadə olunursa, poçt qutusunda hədə məzmunlu bir "bildiriş" gördü. "İcbari sığortalar haqqında" hələ 2011-ci ilin iyununda qəbul olunmuş qanunun xatırlandığı "bildiriş"də əhaliyə bu qanun çərçivəsində daşınmaz əmlaklarını sığortalamaları, əks halda cərimələnəcəkləri xəbərdarlıq edilirdi.




Ən maraqlısı, daha doğrusu, qəribəsi isə o idi ki, bu "bildiriş"də onu göndərən qurumun nə adı vardı, nə də hüquqi ünvanı. Tək olan bir ad-soyad və onun mobil telefon nömrəsi idi ki, bu da bütün hallarda sözügedən "bildiriş"in rəsmiliyinin üstündən çarpaz xətt çəkirdi.

İndi isə keçək əsas mətləbə. Bəli, bu il yanvarın 1-dən ölkə üzrə daşınmaz əmlakın icbari sığortalanmasına başlanılıb. Bəlkə də bu yerdə "başlanılıb" ifadəsi əvəzinə "ciddi nəzarətə götürülüb" yazsaydıq, daha doğru olardı. Çünki daşınmaz əmlakın sığortalanması qeyd edilən "İcbari sığortalar haqqında" qanunun tərkib hissəsi olaraq məcburi sayılırdı. Lakin bəzi obyektiv və subyektiv səbəblərdən bunun üzərinə çox gedilmirdi... ta o vaxtacan ki, xüsusən son illər böyük ticarət mərkəzlərində baş verən yanğınlarda, bəzi regionları sözün həqiqi mənasında silkələyən zəlzələlərdə əhaliyə dəyən ziyanın ölçüsü və məbləği dövlətin diqqətini heç də kiçik olmayan bu problemlərin həllinə yönəltdi.

Əslində, başqa qanuni çıxış yolu da yox idi. O üzdən ki, Azərbaycan nə qədər maliyyə cəhətdən imkanlı və sosial siyasət sarıdan səxavətli dövlət olsa belə, gözlənilən və gözlənilməz təbii fəlakətlərin ölkə əhalisinə vurduğu maddi ziyanı tam və sonacan qarşılamaq iqtidarında deyil. Və ümumiyyətlə, dünyada belə bir ölkə və dövlət yoxdur. Əvəzində belə problemləri yoluna qoymaq üçün hələ neçə əsr əvvəl iqtisadçı alimlərin yaratdıqları sığorta institutu var və o, indiyəcən sözügedən sahədə ən etibarlı və ən səmərəli qurum sayılır.

İndi, konkret halda, daşınmaz əmlak sahəsində də Azərbaycan icbari sığortaya nəzarəti gücləndirməyə qərar verib. Səbəbini qısa da olsa izah etdik. Amma izah etmədiyimiz, daha doğrusu, edə bilmədiyimiz bu prosesin cərimə hədə-qorxusu ilə müşahidə olunmasıdır. Başa düşürük, cərimə icbari məsuliyyətdən yayınmağın qarşısını almaq üçün istifadə edilən üsullardan biridir. Cərimənin, yəni pulun insanlar, xüsusən bizim üçün ən təsirli tərbiyə vasitəsi olduğundan da xəbərimiz var. Amma həmin amillər o demək deyil ki, hər hansı bir işə başlayanda onu cərimələr üzərində qurasan, bu zaman uşaqları küpəgirən qarı ilə qorxutduqları kimi, insanları da cərimə ilə hədələyəsən.

Bəs, əhalinin maarifləndirilməsi, məlumatlandırılması nə üçündür? Hansı, məsələn, paytaxt sakini istəməz ki, il ərzində mənzilini, yaxud evini 50 manat verib bütün qaçılmaz hadisələrdən - zəlzələdən, seldən, yanğından, yer sürüşməsindən, qaz partlayışından, elektrik sistemində qısa qapanmalardan, su, kanalizasiya xətlərinin sıradan çıxmasından, mənzilinə qonşunun su axıtmasından və s.-dən 25 min manatlıq sığorta etdirsin?! Təbii ki, başadüşülən dildə, inandırıcı tərzdə izah olunsa, bundan heç kəs imtina etməz.

Yeri gəlmişkən, daşınmaz əmlakın icbari sığortalanması məsələsi aktuallaşandan sonra indiyəcən nə yazılı, nə də elektron KİV-də bununla bağlı reklam materiallarına rast gəlməmişik. Ümumiyyətlə, bir sıra telekanallarda və qəzetlərdə mütəxəssislərin azsaylı şərh və izahlarını nəzərə almasaq, bu barədə geniş əhali arasında heç bir formada müntəzəm təbliğat işi aparılmır. Hərçənd uşaq da bilir ki, əhalini maarifləndirməklə məqsədə daha tez çatmaq mümkündür, nəinki hansısa qanunun hansısa bəndinə əsasən hansısa məbləğdə cərimə ilə hədələməklə...

Bilgiləndirmək, maarifləndirmək həm də ona görə vacibdir ki, sığorta məsələsində dəfələrlə, necə deyərlər, ağzımız yanıb. Ümumiyyətlə, bu institutun işi ölkəmizdə əvvəlcədən elə qurulub ki, əhalinin ona etibarı, yumşaq desək, arzu olunan səviyyədə deyil. Elə bu üzdən əksəriyyət bütün sığorta növlərinə "pul tələsi" kimi baxır. Bu gün ölkədə ən geniş tətbiq edilən avtomobillərin icbari sığortasında hadisə zamanı insanların qarşılaşdıqları süründürməçilik və bir çox digər səbəblərdən doğan narazılıqları xatırlatmaq yetər ki, sığortaya belə münasibəti doğuran səbəblərdən tək biri məlum olsun.

Belə olan halda isə gərəkdir ki, əlaqədar qurumlar, o cümlədən sığorta şirkətləri güclərini əmlak sahiblərini cərimə ilə qorxutmağa yox, dövlət tərəfindən verilən bu qərarın yalnız onların xeyrinə olduğunu inandırmağa çalışsınlar. Bir də, dərk etsinlər ki, hər hansı bir məqsədə çatmaq üçün formasından asılı olmayaraq istənilən cəza birinci yox, sonuncu vasitədir.

***Raqif MƏMMƏDLİ, "Azərbaycan"***


## B İ L D İ R İ Ş

Gədəbəy Rayon İcra Hakimiyyəti tərəfindən 08 yanvar 2020-ci il tarixdə "Azərbaycan" qəzetində verilmiş tender elanının ***İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər*** bölməsindəki tələb olunan sənədlərin siyahısı aşağıdakı kimi oxunsun.

1. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (son dövrə olan məlumatı əhatə etməklə).
2. Nizamnamə.
3. Qeydiyyatdan keçdiyi ölkə haqqında məlumat.
4. Rekvizitlər.
5. Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (son dövrə olan məlumatı əhatə etməklə).
6. Maliyyə vəziyyəti haqqında bank arayışı (son dövrə olan məlumatı əhatə etməklə).
7. Fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (son dövrə olan məlumatı əhatə etməklə zəruridir).
8. Digər sənədlər. İddiaçının təqdim edəcəyi digər sənədlərin siyahısı tenderin şərtlər toplusunda göstərilmişdir.

***Tender komissiyası***



## "Azərişıq" ASC "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif tipli dayaqların satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT 1** - "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif tipli dayaqların satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 fevral 2020-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 25 fevral 2020-ci il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 26 fevral 2020-ci il saat 16:00-da Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC-yə məxsus Neftçala və Masallı sənaye məhəllələrinin qaz xətlərinə texniki baxışın keçirilməsi və texniki xidmətin göstərilməsi ilə bağlı görüləcək işlərin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 07.01.2020-ci il tarixli qərarına əsasən "NNN Tikinti Quraşdırma" MMC şirkəti kotirovka sorğusunun qalibi seçilmişdir. Qalib şirkətlə 07.01.2020-ci il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 22 yanvar 2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulan LOT 1 "Bakı Metropoliteni" QSC üçün 5x2 ölçülü Led Monitorun və onlayn statistikanı müəyyənləşdirən proqram təminatının satın alınması üzrə açıq tenderin vaxtı 11 fevral 2020-ci il saat 15:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 31.01.2020-ci il saat 15:00-ə qədər, tender təklifi və bank təminatını isə 10.02.2020-ci il saat 15:00-ə qədər, Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif tipli qutu və panoların satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT 1** - "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif tipli qutu və panoların satın alınması

**İştirak haqqı - 400 manat**

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 05 fevral 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 13 fevral 2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14 fevral 2020-ci il saat 16:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərişıq" ASC "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif çəpərləmə dəstlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT 1** - "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif çəpərləmə dəstlərinin satın alınması

**İştirak haqqı - 400 manat**

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 05 fevral 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 13 fevral 2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14 fevral 2020-ci il saat 16:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərişıq" ASC "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif kabel məhsullarının satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

LOT 1 - "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif kabel məhsullarının satın alınması

**İştirak haqqı - 400 manat**

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 05 fevral 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 13 fevral 2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14 fevral 2020-ci il saat 16:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərişıq" ASC "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif ÖİN aksesuarlarının satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT 1** - "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif ÖİN aksesuarlarının satın alınması

**İştirak haqqı - 400 manat**

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 05 fevral 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 13 fevral 2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14 fevral 2020-ci il saat 16:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərişıq" ASC "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif elektrik mallarının satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT 1** - "ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif elektrik mallarının satın alınması

**İştirak haqqı - 400 manat**

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 05 fevral 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 13 fevral 2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14 fevral 2020-ci il saat 16:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## bakcell abunəçilərinin nəzərinə

"Bakcell" MMC ilə abunəçilər arasında imzalanmış, özündə "wireless internet at home solution" cihazı vasitəsilə müvafiq internet trafikinin təmin edilməsini əks etdirən "WiFi evinizdə" müqavilələrinə, bu müqavilələrin 3.2.5-ci maddəsinə əsasən 24 yanvar 2020-ci il tarixdən xitam verilir.

"Bakcell" MMC "wireless internet at home solution" cihazının abunəçilərin istifadəsində qalması şərti ilə yeni şərtlərlə müqavilə bağlamağı təklif edir. Yeni müqavilə bağlanmadığı halda "wireless internet at home solution" cihazını "Bakcell" MMC-yə geri qaytarmaq abunəçilərdən xahiş olunur.

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

**Ayaz Rəşid oğlu İsaqovun adına Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi, 19, mənzil 2 ünvanına dair verilmiş 30 oktyabr 2014-cü il tarixli 1114092971 saylı Çıxarış itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərova əzizi

**KAMAL ƏHMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Masallı rayon Türkoba kəndinin ziyalıları və ağsaqqalları görkəmli alim, akademik

**BAHADIR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"3 saylı Bakı Mətbəəsi" ASC-nin kollektivi mətbəənin direktoru Şəddat Cəfərova həyat yoldaşı

**MİRFATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərova əzizi

**KAMAL ƏHMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Masallı rayon Tüklə kənd sakinləri görkəmli alim, akademik

**BAHADIR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Masallı rayon Boradigah qəsəbə inzibati ərazi nümayəndəliyi və ağsaqqallar şurası görkəmli alim, akademik

**BAHADIR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6946
Sifariş 3
Qiyməti 40 qəpik